Xalqın qəzeti!

# Xalq qəzeti

№ 259 (30375) 28 noyabr 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

# Azərbaycan qabaqcıl idman ölkəsidir

## Prezident İlham Əliyev cüdo üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzində yaradılan şəraitlə tanış olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda cüdo üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzində əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.**

Rəqəmsal inkişaf və nəqliyyat naziri, Azərbaycan Cüdo Federasiyasının prezidenti Rəşad Nəbiyev dövlətimizin başçısına Təlim-Məşq Mərkəzində yaradılan şəraitlə bağlı məlumat verdi.

Qeyd edək ki, bu gün Azərbaycan dünyada həm də güclü idman ənənələri ilə tanınır. İdmanın inkişafı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Son illərdə inşa olunan nəhəng idman kompleksləri Azərbaycanın idman potensialının nümayişi, gənclərin bu sahəyə meyilinin artması ilə nəticələnib. Bütün bunlar isə ilk növbədə, dövlətimizin başçısının idmanın inkişafına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi idmanın inkişafı, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqətdə saxlanılacaq. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da idmançılara diqqəti idman ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir.

Bildirildi ki, Olimpiya növləri üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzi 1967-ci ildə istifadəyə verilib. Bir vaxtlar "Neftçi" təlim-məşq bazası kimi şöhrət tapan bu idman kompleksi şəhərin mərkəzində, Azadlıq prospekti 149 ünvanında yerləşir. Kompleksin adı 1997-ci ildə dəyişdirilərək Olimpiya növləri üzrə Milli Komandalar üçün Təlim-Məşq Mərkəzinə çevrilib. İdman qurğusu fəaliyyətini bundan sonra cüdo üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzi kimi davam etdirəcək.

Diqqətə çatdırıldı ki, Mərkəzdə əsaslı təmir və tikinti işləri yüksək keyfiyyətlə aparılıb və bu ilin noyabrında başa çatdırılıb. Ümumi ərazisi 2,2 hektar olan idman qurğusunda bütün zəruri infrastruktur yaradılıb. Təlim-Məşq Mərkəzi müasirliyi ilə diqqəti cəlb edir.

Mərkəzdə qadınlar və yeniyetmələr üçün böyük idman zalı yaradılıb. Burada eyni zamanda 60 idmançı məşq edə biləcək.

Əsaslı təmir zamanı Təlim-Məşq Mərkəzinin uzunluğu 96 metr və eni 72 metr olan stadionunun süni ot örtüyü də dəyişdirilib. Həmçinin stadion müasir işıqlandırma sistemi ilə təchiz edilib.

*(ardı 2-ci səhifədə)*

## Media özünü xarici yoluxmadan qorumalıdır

**Azərbaycan demokratik, hüquqi dövlətdir. Ölkəmiz BMT, ATƏT, Avropa Şurası başda olmaqla, demək olar ki, bütün beynəlxalq təşkilatların üzvüdür və insan hüquqlarının qorunması ilə bağlı beynəlxalq müqavilələrə, paktlara qoşulub. Azərbaycan hər il Cenevrədə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal mexanizmi çərçivəsində ölkədə insan hüquq və əsas azadlıqlarının müdafiəsi ilə bağlı məruzə hazırlayaraq təqdim edir.**



Dünyanın bütün dövlətlərində olduğu kimi Azərbaycanda da cinayət törətməkdə təqsirləndirilən şəxslər istintaqa cəlb olunur, onlarla bağlı müvafiq prosedurlar yerinə yetirilir. Sonda iş məhkəmə baxışına verilir. Əgər cinayət törətdiyi sübuta yetirilərsə, təqsirləndirilən şəxslər müxtəlif müddətlərə azadlıqdan məhrum edilir. Praktikada cinayət törətdiyi sübuta yetirilməyən şəxslərin ədalət mühakiməsində bəraət almaları faktları da var. Bundan əlavə, Azərbaycan əfv institutunun uğurla fəaliyyət göstərdiyi ölkələrdəndir.

*(ardı 3-cü səhifədə)*

## İrəvanda canlı yayım şousu – sülhə "razılıq" və anti-Rusiya ovqatı



Səhifə ⇨ 4

## Hər cür müqayisə qüsurludur



**Qərbin, xüsusilə Fransanın və onun Qafqaz "təşəbbüslərini" dəstəkləyən ABŞ-ın bölgədə hansı maraqları güddüyü, burada kəllə-kəlləyə gələn güclərin əsas məqsədlərinin nədən ibarət olduğu hamıya məlumdur.**

Həmin güclərin planı "Ermənistanı Cənubi Qafqazın Ukraynasına çevirmək", bölgədə qüvvələr nisbətini dəyişmək, nəticədə burada geosiyası maraqlarını təmin etməkdirsə, bu ssenari alınmayacaq. Çünki bölgədə bütün tərəflərə ədalətli və şəffaf oyun qaydalarını diktə edən, söz və güc sahibi olan Azərbaycan var. Kənar aktorlar bu amili görməzdən gələ bilməzlər. Əslində, bunu yeni "Qafqaz ssenarisi"nin müəllifləri də çox gözəl bilirlər, lakin Ermənistanın üzərindən Rusiyaya təsir göstərməyi hədəfləyən hayların saxta təəssübkeşlərinin son cəhdi də fiaskoya uğrayacaq.

*(ardı 6-cı səhifədə)*

## HƏMAS–İsrail qarşıdurması: Girovlar dəyişdirilir



Səhifə ⇨ 11

## Azərbaycanın beynəlxalq daşımalarda rolu və önəmi yüksəlir



**Son illər ərzində ölkəmizdə nəqliyyat və logistika sahələrinin inkişaf etdirilməsi, sahənin infrastrukturunun müasir tələblərə uyğunlaşdırılması, respublikamızın ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialından tam istifadənin gerçəkləşdirilməsi ilə bağlı bir sıra önəmli layihələr həyata keçirilib.**

"Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" və "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" kimi sənədlərin icrası diqqət mərkəzində saxlanılıb.

Burada onu da xatırladaq ki, son dövrlərdə regionda baş verən geosiyasi proseslər fonunda Şərqlə Qərb arasında ənənəvi marşrutlarda müəyyən çətinliklər yaranıb. Bu isə ölkəmizdən keçən dəhlizlər üzrə tranzit yükdaşımaların həcmində kəskin artıma gətirib çıxarıb.

*(ardı 7-ci səhifədə)*

## Türk immunoloq xərçəngə qarşı vaksin hazırlayıb

**Koronavirus pandemiyasının ən sərt vaxtlarında ölkəmizdə 4 tanınmış vaksin şirkətinin peyvəndləri tətbiq olundu. Bunlardan biri də məhz "Pfizer-BioNTech" şirkətinin istehsal etdiyi peyvənd idi.**



*(ardı 9-cu səhifədə)*

## Sarkisyanın "Qarabağ məyusluğu"ndan Paşinyanın "günah keçisi" axtarışınadək

Səhifə ⇨ 4

# Prezident İlham Əliyev cüdo üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzində yaradılan şəraitlə tanış olub





**(əvvəli 1-ci səhifədə)**

Dövlətimizin başçısı əsas binada yaradılan şəraitlə də tanış oldu.

Burada kişilər və gənc oğlanlar üçün nəzərdə tutulan məşq zalında eyni vaxtda 100 idmançı məşq edə biləcək. Mərkəzdəki bütün məşq zalları Beynəlxalq Cüdo Federasiyasının standartlarına uyğun olan tatamilər ilə təchiz olunub. İdman qurğusunun fiziki hazırlıq zalı da ən yüksək standartlara cavab verir. Məşqçilərin otaqlarında da məhsuldar fəaliyyət üçün hər cür şərait yaradılıb.

Təlim-Məşq Mərkəzinin əhəmiyyətini artıran amillərdən biri də burada 28 yerlik müasir otel bölməsinin yaradılmasıdır. Oteldə həm idmançıların, həm də məşqçilərin qalması və istirahəti üçün hər cür imkan var.

Mərkəzdə çalışacaq 50-dən artıq əməkdaş üçün də əsas binada hər bir şərait yaradılıb. Buradakı restoranda idmançılara yüksək səviyyədə xidmət göstəriləcək. Kompleksdə idmançıların sağlamlığı da nəzərə alınıb. Həkim otağı, fizioterapiya və masaj otaqları idmançıların ilkin reabilitasiyası və müalicəsi üçün lazımi cihaz və avadanlıqlarla təchiz edilib.

İdman qurğusunun həyətində geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb.

Bu gün Azərbaycanda idmanın cüdo növünə maraq çox böyükdür. Beynəlxalq Cüdo Federasiyasının fəal üzvü olan Azərbaycan bu idman növünün inkişafında çox maraqlıdır. Bu da idmançılarımızın beynəlxalq yarışlarda əldə etdiyi medalların və ölkəmizdə keçirilən beynəlxalq turnirlərin sayında əksini tapıb. Xüsusilə də cüdo üzrə illik nəticələrə nəzər saldıqda görərik ki, Azərbaycan bu idman növündə 2023-cü ildə Avropa Gənclərinin Olimpiya Festivalında, Avropa və Dünya çempionatlarında və digər mötəbər yarışlarda tarixi qələbələrə imza atıb. Belə ki, Azərbaycan cüdoçuları il ərzində bütün yaş qrupları üzrə fərdi və komandalar arasında keçirilən beynəlxalq yarışlarda ümumilikdə 233 medal əldə ediblər. Bu medallardan 73-ü qızıl, 53-ü gümüş və 107-si bürünc olub.

Regionlarda da cüdo üzrə infrastrukturun təkmilləşdirilməsi Azərbaycan Cüdo Federasiyasının əsas fəaliyyət istiqamətlərindən biridir. Belə ki, 2023-cü ildə Gəncə, Ağstafa, Zaqatala, Goranboy, Zəngilan rayonunun Ağalı kəndi, Sabirabad, Zirə və Sumqayıtda cüdo zalları istifadəyə verilib. Respublikamızın bir neçə şəhər və rayonlarında isə cüdo zallarının təmiri davam etdirilməkdədir.

***AZƏRTAC***

# Qəbələdə Ulu öndərə həsr olunan toplantı



**Hərbi Prokurorluq ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı növbəti maarifləndirmə tədbirini Qəbələ rayonunda keçirib.**

Baş prokurorun müavini – Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev və digər çıxışçılar ümummilli liderin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Toplantıda müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi Qələbə və uğurlu antiterror tədbirləri xüsusi vurğulanmaqla, Vətən müharibəsindən, o dövrlərdə prokurorluğun, həmçinin Hərbi Prokurorluğun silahlı qüvvələrlə, o cümlədən, DİN Daxili Qoşunları ilə qarşılıqlı səmərəli fəaliyyətindən də bəhs edilib.

Sonra hərbi qulluqçuların qayğı və problemləri ilə maraqlanılıb, onlarla hüquqi maarifləndirici mövzularda söhbətlər aparılıb, xidmətdə fərqlənən hərbi qulluqçular qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

***XQ***



# Daha 25 ailə Füzuliyə qovuşdu

**Bu gün 25 ailə olmaqla 106 nəfər Füzuli sakini doğma yurduna qovuşub. Ailələr sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alaraq öz evlərində məskunlaşıblar.**



Bununla da Füzuli şəhərində 308 ailə olmaqla 1106 nəfərin daimi məskunlaşması təmin edilib. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

***XQ***

# Baş Prokurorluqda media təlimi



**Dünən Baş Prokurorluqda media subyektləri və jurnalistlər üçün "Cinayət təqibi, media və vətəndaş cəmiyyəti institutlarının qarşılıqlı əlaqələrinin müasir tendensiyaları" mövzusunda təlim keçirilib.**

Baş Prokurorluğun mətbuat xidmətinin əməkdaşları, Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev və müxtəlif media qurumlarını təmsil edən jurnalistlərin iştirakı ilə keçirilən təlimdə prokurorluq orqanlarında gerçəkləşdirilən kommunikasiya siyasəti barədə ətraflı məlumat verilib, işin səmərəliliyinin artırılması yönündə media nümayəndələrinin təklifləri dinlənilib, mövzu ətrafında qarşılıqlı fikir mübadiləsi aparılıb.

Sonda jurnalistləri maraqlandıran suallar cavablandırılıb, belə təlimlərin davamlı olmasının zəruriliyi qeyd edilib.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2023-cü ilin dekabr ayında vətəndaşların qəbulu cədvəli

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri**<br>Əliyev Məhərrəm Abış oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi**<br>Qasımov Azər Məhəmməd oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | 6,21 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | 7 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | 8,15,22 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | 15 |
| Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi | 18 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | 19 |
| Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru | 20 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | 25 |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | 26 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | 27 |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | 28 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | 29 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası**<br>**Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | 29 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2023-cü ilin dekabr ayında vətəndaşların qəbulu cədvəli

| **Qəbulu aparan şəxs** | **Qəbul günü** |
|---|---|
| **Baş nazirin birinci müavini**<br>Eyyubov Yaqub Abdulla oğlu | 1 |
| **Baş nazirin müavini**<br>Əhmədov Əli Cavad oğlu | 4 |
| **Baş nazirin müavini**<br>Mustafayev Şahin Abdulla oğlu | 5 |
| **Aparatın rəhbəri**<br>Məmmədov Rüfət Tofiq oğlu | 6 |
| **İqtisadiyyat şöbəsinin müdiri**<br>Əmiraslanov Azər Kamal oğlu | 7 |
| **Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri**<br>Rüstəmli Ruslan Rüstəm oğlu | 20 |
| **Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri**<br>Paşayev Zakir İlqar oğlu | 11,26 |
| **Hüquq və qanunvericilik şöbəsinin müdiri**<br>Qasımlı Xalid Akif oğlu | 12,27 |
| **Sosial məsələlər şöbəsinin müdiri**<br>Rəhimov Niyazi Süleyman oğlu | 13,28 |
| **Humanitar məsələlər şöbəsinin müdiri vəzifəsini icra edən**<br>Həbibbəyli Ərəstü İsa oğlu | 14 |
| **Sənaye və energetika şöbəsinin müdiri**<br>Hacızadə Elşən Mahmud oğlu | 15,29 |
| **Aqrar və ekologiya şöbəsinin müdiri**<br>Qasımov Lətif Cəfər oğlu | 18 |
| **Regionların inkişafı şöbəsinin müdiri**<br>Məcidov İlkin Sabir oğlu | 19 |
| **Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri**<br>Mustafayev Feyruz Rəvayət oğlu | 8,25 |
| **Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri**<br>Pənahov Musa Sədi oğlu | 21 |
| **Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri**<br>Məmmədov Anar Rəhim oğlu | 22 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012)492-19-23, (012)492-88-96.**

Günün mövzusu

# Media özünü xarici yoluxmadan qorumalıdır

## Bəzən ən böyük təhlükəni jurnalistin yanlış seçimi yaradır





(əvvəli 1-ci səhifədə)

Dünyanın bütün dövlətlərində olduğu kimi, Azərbaycanda da cinayət törətməkdə təqsirləndirilən şəxslər istintaqa cəlb olunur, onlarla bağlı müvafiq prosedurlar yerinə yetirilir. Sonda iş məhkəmə baxışına verilir. Əgər cinayət törətdiyi sübuta yetirilərsə, təqsirləndirilən şəxslər müxtəlif müddətlərə azadlıqdan məhrum edilir. Praktikada cinayət törətdiyi sübuta yetirilməyən şəxslərin ədalət mühakiməsində bəraət almaları faktları da var. Bundan əlavə, Azərbaycan əfv institutunun uğurla fəaliyyət göstərdiyi ölkələrdəndir.

Azərbaycanda hamı qanun qarşısında bərabərdir. Cinsindən, sosial statusundan və digər məqamlardan asılı olmayaraq cinayət törədən cəzasını çəkməlidir. Həmin məqam jurnalistlərə də aiddir. Jurnalist olmaq qanunları pozmağa haqq qazandırmır, hansısa şəxsi üstün duruma qaldırmır. Buna baxmayaraq, Azərbaycanda hansısa jurnalist həbs olunan kimi onunla bağlı Avropa ölkələrindəki müxtəlif dairələr tərəfindən kampaniyalar başladılır. Jurnalistin həbsi məsələsi dövlətə qarşı təzyiqin yeni elementinə çevrilir. Avropa qurumları tələb edirlər ki, jurnalist həbs olunubsa, ona xüsusi imtiyaz tanınmalıdır.

Əlbəttə, jurnalistin həbsi arzuolunmazdır. Ancaq qeyd etdiyimiz kimi, qanun hamının qarşısında bərabərlik işarəsi qoyur. "Abzas Media"nın direktoru Ülvi Həsənli, həmin nəşrin baş redaktoru Sevinc Abbasova (Vaqifqızı) və direktor müavini Məhəmməd Kekalov barədə istintaq müddətində həbs qətimkan tədbirinin seçilməsi də bu qəbildəndir. Halbuki, onlar Cinayət Məcəlləsinin 206.3.2-ci maddəsi (qaçaqmalçılıq, əvvəlcədən əlbir olan qrupla törədildikdə) ilə ittiham olunurlar. Bununla bağlı media sahəsinin tanınmış simalarının fikirlərini təqdim edirik.

**Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid "XQ"-yə bildirdi ki,** əlbəttə, səbəbindən asılı olmayaraq, istənilən jurnalistin həbsi məyusluq doğurur. Ümumiyyətlə, jurnalistin həbsi arzuolunmazdır. O cümlədən, "Abzas Media" saytının direktoru və baş redaktorunun həbsi də: "Məsələ ilk gündən Mətbuat Şurasının diqqət mərkəzindədir. İndiki halda istər Sevinc Vaqifqızına, istərsə də Ülvi Həsənliyə qarşı irəli sürülmüş konkret ittihamlar var. Hər bir halda jurnalistlərə qarşı qanunun aliliyi çərçivəsində davranılmasının tərəfdarıyam. Rəhbərlik etdiyim Mətbuat Şurası bununla bağlı çağırış da səsləndirib."



Rəşad Məcid əlavə etdi ki, digər tərəfdən, ölkəmizi nüfuzdan salmağa çalışan, düşmən qüvvələrin sifarişini yerinə yetirən qüvvələr aktivləşiblər. Belələri hər vəchlə ölkəmizin qalib dövlət imicinə zərbə vurmağa çalışırlar: "Mövcud xüsusda istər Ermənistanla danışıqlar masasında, istərsə də digər beynəlxalq müstəvilərdə ölkəmizi zəif salmaq niyyətləri var. Təəssüf ki, media da belə, yumşaq desəm, xoş olmayan niyyətlərin alətinə çevrilir. Ona da təəssüf edirəm ki, bu tendensiya aktuallığını saxlamaqdadır. Media azad olmalı, tərəf qismində çıxış etməməli, özünün mütərəqqi missiyasına sadiq qalmalıdır. Yaxşı olardı ki, media və jurnalist adına iddialı hər bir kəs öz üzərinə düşən məsuliyyəti anlasın. Fikrimcə, söz azadlığı da, plüralizm də məhz bu anlayışdan, məsələnin mahiyyətinin dərkindən keçir".

**"Real TV"nin rəhbəri Mirşahin Ağayev jurnalistlərin həbsindən danışarkən dedi:** "Əlbəttə ağırdır, ağrılıdır və mən də hesab edirəm ki, bu



gənclər həbsxanada yox, azadlıqda, cəmiyyətimizin xidmətində olmalıdırlar. Amma gənclərimiz səhvlərdən, xətalardan da sığortalanmayıblar. Onların müxtəlif qüvvələrin təsiri altına düşmə riskləri böyükdür. Qaragüruhun qidalandığı zümrə də gənclərə, yeniyetmələrə bel bağlayır. Bu gün zindanda olanların heç biri körpə çağında həbsxanaya düşməyi özünə arzulamayıb. Amma düşüblər, içəridədirlər… Yəni həbsdədirlər! Deməli, Sevinc də, Ülvi də nəzəri cəhətdən səhv, xəta, hətta cinayət edə və həbs oluna bilər".

Mirşahin Ağayev qeyd etdi ki, jurnalistika fakültəsini bitirməyin mətləbə, yəqin ki, az dəxli var: "Çünki Azərbaycana qarşı çox böyük informasiya təxribatı aparan Sevinc Mirzəyeva (Osmanqızı) da BDU-nun Jurnalistika fakültəsini bitirib. Hansı anti-Azərbaycan oyunlarında iştirak edir, görürsünüz yəqin. Tək-tük başqa belə məzunlarımız da var. "Abzas Media" ilə bağlı məni bir jurnalist olaraq ən çox narahat edən əsas sual budur: Bu sayt hansı mənbə hesabına fəaliyyət göstərir? Bir vətəndaş kimi isə məni maraqlandıran əsas məsələ, bu saytın fəaliyyətinin dövlətin Qarabağda qazandığı tarixi uğura səhlənkarcasına, etinasız yanaşması, hər yerdə nöqsan axtarmasının sırf psixoloji mənşəyidir. O vəsaiti hansı dövlət, hansı fond, hansı qurum Azərbaycana qarşı buraxıb? Niyə? Dövlətdən, hüquq-mühafizə orqanlarından da gözlədiyim var: təfərrüatlı araşdırma! Ədalətli yanaşma. Humanizmə əsaslanan tənbeh. Amma prinsipial! "Allah qapısını açsın!" tipli alqışlardan uzağam, xarakterimə bələdsiniz. Layiqdirlərsə, dövlət, qanun açsın qapılarını! Cəza veriləcəyi təqdirdə, Ülvi də, Sevinc də nəticə çıxarsın, layiqli gələcək qurucuları, layiqli rifah iştirakçıları olsunlar! Bu qədər!"

**"Bizim Yol" qəzetinin baş redaktoru Bahəddin Həziyev isə "XQ"-yə bildirdi ki,** noyabrın 27-də "Abzas Media" saytının əməkdaşlarının apellyasiya şikayətlərinə baxılıb. Onun sözlərinə görə, sayt əməkdaşlarının barəsində həbs qətimkan tədbiri dəyişdirilməyib. Deməli, istintaq müddətində həbsdə qalacaqlar: "Bu qərar gözlənilməz olmasa da, üzülməmək əldə deyil. Sözün açığı, ən çox da Sevinc Vaqifqızına görə təəssüflənirəm. O biri şəxslərin nə özünü, nə imzasını tanıyıram. Sevinc Vaqifqızının isə həm qələminə, həm də imzasına bələdəm. 2013-cü ilədək bizimlə birlikdə işləyib. On il əvvələ qədər bizimlə çalışıb. Artıq daha əvvəl də dediyim kimi, yaxşı jurnalistdir, cəsur və çalışqan reportyordur. Jurnalist təhqiqatını yaxşı bacarır. Sonrakı fəaliyyətini yaxından izləməmişəm. İstənilən halda gənc jurnalistlərin belə bir tale yaşaması mediamız, ümumilikdə cəmiyyətimiz üçün üzücüdür. Yaxşı olardı ki, onların barəsində ev dustaqlığı, başqa yerə getməmə və sair qətimkan tədbirlərindən biri seçiləydi. Ancaq bu olmadı, məhkəmənin qərarı başqa cür oldu. Mən əvvəl də yazmışam: jurnalistika təkcə sənət deyil, həm də taledir. Dünyanın heç bir yerində jurnalistlər təhlükələrdən sığortalanmayıblar. Əsgər kimi, polis kimi, bir sıra bəzi başqa riskli sahələrdə çalışanlar kimi jurnalist də təhlükə vəd edən işlə məşğuldur. Ancaq təkcə jurnalistlər üçün deyil, hər bir şəxs üçün ən qorxulusu xarici təsirlər altına düşməkdir. O zaman insanın özünə ən böyük təhlükə elə özündən, öz seçimindən gəlir".

Bahəddin Həziyev qeyd etdi ki, doğrudur, istintaq olunan cinayət işi ilə bağlı hələlik rəsmi məlumat yayılmayıb. Ancaq media resurslarında yayılan araşdırmalara görə, bu həbslər xarici fondlardan alınmış qrantlarla, daha doğrusu, xarici donorların maliyyə dəstəyi ilə Azərbaycan ərazisində həyata keçirilən layihələrlə, bağlanmış müqavilələrin ölkənin müvafiq orqanlarında rəsmən qeydiyyatdan keçirilməməsi ilə bağlıdır: "Bu zaman, təbii ki, residiv yaranır. Belə çıxır ki, istintaq həmin qrant məbləğlərinin ölkəyə qeydiyyatdan kənar gətirilməsini qaçaqmalçılıq kimi tövsif edib. Doğrudur, ittiham olunan gənclər özlərini təqsirli bilmirlər və bu həbsləri müstəqil jurnalistika fəaliyyəti ilə bağlı onlara təzyiq kimi qiymətləndirirlər. Əlbəttə, istintaq obyektiv və ədalətli olmalı, bu məsələlərə dəqiq və dolğun cavabları verməlidir. Nəticənin necə olacağını zaman göstərəcək. Ancaq istənilən halda gənclərimizə, o cümlədən və xüsusilə, jurnalistlərimizə tövsiyə edərdim ki, xarici dairələrin təsiri altına düşməmək üçün diqqətli olsunlar. Xarici fondlar və qeyri-hökumət təşkilatları mənsub olduqları dövlətin və ya bağlı olduqları dövlətlər qrupunun, beynəlxalq təşkilatların, yaxud transmilli korporasiyaların və sair qüvvələrin maraqlarından kənarda işləmirlər. Onlar əgər hansısa ölkədə hansısa layihəni maliyyələşdirirlərsə, bunda öz maraqları və məqsədləri var. Bu da təbiidir. Ona görə kim başqa ölkənin qarşısında qanunsuz siyasi, maliyyə və sair öhdəliklər götürürsə, öz dövlətinin qanunları ilə münaqişəyə girmiş olur".

Baş redaktor əlavə etdi ki, xarici qüvvələr zaman-zaman bu və ya başqa ölkənin vətəndaşlarını təsir altına salaraq öz dövlətinə qarşı onlardan təzyiq faktoru kimi istifadə edirlər: "Bu, təkcə ayrı-ayrı şəxslərə deyil, əhali kateqoriyalarına, ictimai birliklərə, siyasi partiyalara və sair tətbiq olunan üsuldur. Bu səbəblərdən diqqətli və ehtiyatlı olmaq, qanun müstəvisindən kənara çıxmamaq lazımdır".

Bəli, özünün milli maraqlarını hər şeydən üstün tutan, xarici qüvvələrin istəklərinə boyun əyməyən, tam müstəqil xarici və daxili siyasət yürüdən, Qarabağ iqtisadi rayonunun bütün ərazisində suverenliyini bərqərar edən Azərbaycan dövlətinin uğurları artdıqca onun dünyanın müxtəlif yerlərindəki, o cümlədən Avropadakı bədxahlarının fəaliyyəti də güclənir. Xarici dairələrin dövlətimiz əleyhinə fəaliyyətlərində zaman-zaman bəzi jurnalistlərdən istifadə etdikləri bir gerçəklikdir. Azərbaycan dövlətçiliyinə, onun bölgədə apardığı sülhpərvər siyasətə, qlobal problemlərin həlli istiqamətində oynadığı mühüm rola qarşı xarici dairələrin vasitə kimi jurnalistlərdən istifadə etmələri təəssüf doğurur.

***Səxavət HƏMİD***
***XQ***

XQ-nin şərhi

**Özünü media qurumu elan etmiş "Abzas.net" xəbər portalı ətrafında yaranmış durum müxtəlif səpkili müzakirələrə səbəb olub. Bir neçə beynəlxalq jurnalist təşkilatı bəyanat yayaraq, portalın direktoru Ülvi Həsənlinin və redaktor Sevinc Vaqifqızının həbsinə etiraz ediblər.**

# "Abzas Media" hadisəsi zəruri suallar doğurur

Fransada yerləşən "Sərhədsiz reportyorlar" Təşkilatı (SRT) bunu "müstəqil mediaya qarşı təzyiq" kimi qiymətləndirib. Müdafiə bəyanatında iddia olunur ki, guya, "Abzas Media müstəqil və peşəkar olduğu, ölkədəki korrupsiya hallarını araşdırdığı üçün susdurulub".

Mənzil-qərargahı Nyu-Yorkda olan Jurnalistlərin Müdafiəsi Komitəsi də "Sərhədsiz reportyorlar"a bənzər mövqe sərgiləyib.

Təbii ki, onları belə mövqe sərgiləməyə xüsusi mərkəzlər istiqamətləndirir. Hər iki beynəlxalq təşkilatın Azərbaycanda təmsilçiləri də var. Mərkəzi ofislər yerli təmsilçilərə güvənərək, əlavə araşdırma aparmadan, Ülvi Həsənlinin saxlanılmasını "müstəqil mediaya qarşı təzyiq" kimi dəyərləndirib. Bu başqa bir mövzudur ki, "Abzas Media" olayını kontekstdən çıxardılmış, yanlış formada təqdim etmək həm "Sərhədsiz reportyorlar"ın, həm də Jurnalistlərin Müdafiəsi Komitəsinin işinə yarayır. "Beynəlxalq təşkilat" adlandırılan bu qurumların özlərinin "müstəqillikləri" mübahisəlidir. Onlar müstəqil beynəlxalq təşkilat olmaqdan daha çox, ərazisində yerləşdikləri ölkələrin – Fransa və ABŞ-nin "demokratiya dəyənəyi" rolunu ifa edirlər. Bu təşkilatların Ermənistandakı media insidentlərinə yanaşması ilə Azərbaycana münasibətindəki fərqləri müqayisə etsək, görərik ki, onların hər ikisi siyasi konyukturaya uyğun davranırlar. "Jurnalist hüquqlarını müdafiə etməkdən" daha çox, Fransa və ABŞ-ın maraqlarına boyun əyməyən dövlətləri şərləməklə məşğuldurlar. Amma indiki mövzumuz fərqli olduğundan bu məqamın üzərindən keçirik.

Məsələ ondadır ki, SRT və JMK "Abzas Media"nı Azərbaycandakı "az sayda müstəqil və peşəkar KİV qurumlarından biri" adlandırmaqla ölkənin gerçəkdən peşəkar olan KİV subyektlərinin fəaliyyətini şübhəyə alır. Bununla kifayətlənməyərək, onlar həm də Azərbaycanın milli jurnalist təşkilatlarının fəaliyyətinə kölgə salırlar. Milli jurnalist təşkilatlarını Ülvi Həsənlinin hüquqlarını müdafiə etmədiyi üçün qınayırlar. SRT və JMK -nın yerli təmsilçiləri də fürsəti əldən verməyib tərpənərək belə rəy formalaşdırırlar ki, guya, ölkənin jurnalist təşkilatları da "asılı durumdadır". "Abzas Media"nı müdafiə etmək üçün "cəsarət etmir". Hansı ki, qeyd edilənlərin reallıqla heç bir əlaqəsi yoxdur.

Milli jurnalist təşkilatlarının indiki halda soyuqqanlı davranmasının səbəbləri fərqlidir. Gerçək olan budur ki, Azərbaycan hüquq-mühafizə orqanlarının "Abzas Media" rəhbərləri ətrafında başlatdığı istintaq prosesi qətiyyən media hadisəsi deyil. Ülvi Həsənlinin vəkili Zibeydə Sadıqovanın açıqlamalarından da belə görünür ki, o, Cinayət Məcəlləsinin 206.3.2-ci maddəsi, yəni qaçaqmalçılıq işində şübhəli bilinir. Qaçaqmalçılıq da heç bir halda media hadisəsi sayıla bilməz.Bu elə bir mövzudur ki, hansısa jurnalist təşkilatının müdaxilə etməsi, öncədən fikir söyləməsi çətindir. Şübhəli faktın təsdiqini tapıb-tapmayacağı barədə qəti rəy bildirmək mümkün deyil. Ən optimal variant istintaqın son rəyini gözləməkdir. "Sərhədsiz reportyorlar" və Jurnalistlərin Müdafiə Komitəsi istintaq prosesinin nəticələrini gözləmədən tələsik rəy verib. Əgər sabah istintaq orqanları sübut edilmiş bir faktı açıqlayacaqsa, ortaya sənəd-sübut qoyacaqsa, onda bu təşkilatlar nə deyəcək? Yaxud, irəli sürülən faktlar öz təsdiqini tapmayacaq, Ülvi Həsənli də, Sevinc Vaqifqızı da sərbəst buraxılacaqlar. SRT və JMK onda nə deyəcək?

İstintaq qurumları əldə etdikləri faktları artıq ictimailəşdirməyə başlayıb. İlkin məlumat budur ki, "Abzas Media"nın rəhbərləri ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID), Milli Demokratiya Fondu (NED), "Avropa Demokratiyaya Yardım Fondu (EED), "FreedomNow", Qlobal Araşdırmaçı Jurnalistika Şəbəkəsi, Amerika Beynəlxalq Təhsil Şurası, "People in Need" (PİN), Norveç Helsinki Komitəsi və digər təşkilatlardan qrant alıblar. Bu vəsaitlərin ümumi məbləği 500 min Avroya yaxındır.

Problem ondadır ki, bu vəsaitlərin heç biri qeydiyyatdan keçirilməyib. İstintaq orqanlarının açıqlamalarından belə görünür ki, bütün bu vəsaitlər qeyri-leqal formada realizə olunub. Vəsaitin hara xərcləndiyi də bəlli deyil. "Qrant haqqında qanun"a əsasən, istənilən qurum aldığı qrant layihəsini Ədliyyə Nazirliyində qeydiyyatdan keçirməli, onun icrasında şəffaflığı təmin etməlidir. "Abzas Media" adına sadalanan qrant vəsaitlərinin isə qeydiyyatı yoxdur.

Jurnalist təşkilatları istintaq qurumu deyil – açıqlanmış faktları nə təsdiq, nə də inkar edə bilir. Bu baxımdan, hamı istintaqın yekunlaşmasını, Ülvi Həsənlinin ifadə verməsini gözləyir. Fikrimizcə, jurnalist təşkilatının görə biləcəyi ən yaxşı iş məsələni ictimailəşdirmək, istintaq prosesinin ədalətli keçirilməsini tələb etməkdir. Əgər istintaq prosesində şəxsə təzyiq olarsa, ittiham zorla boynuna qoyularsa, təbii ki, etiraz da olacaq. İndiki halda bunun əlamətləri görünmür.

Amma problem bununla da yekunlaşmır. "Abzas Media" təkcə "Qrant haqqında qanunu" pozmuş kimi görünmür. O, hətta KİV subyekti qismində də fəaliyyətini qanundan kənar qurub, "Media haqqında qanun"u pozaraq, Media Reyestrindən keçməyib. İndiki qanunlara istinadən şərh etsək, "Abzas Media"n"ın KİV subyekti kimi fəaliyyəti mübahisəlidir.

"Abzas Media" qanunvericiliyi nə üçün pozub? Nə üçün Reyestrdə qeydiyyata düşməyib? Bu sualların cavabları mühümdür. "Abzas Media"nı "peşəkar KİV subyekti" adlandıranlar bu suallara aydınlıq gətirməyə borcludurlar.

**Müşfiq ƏLƏSGƏRLİ**
**XQ-nin media eksperti**

# Qızılbaş irsi tariximizin qiymətli yadigarıdır

**Noyabrın 27-də Bakıda ulu öndər Heydər Əliyevin 100 illiyi çərçivəsində "Azərbaycanda qızılbaş irsi: tarixin izi ilə" mövzusunda beynəlxalq konfrans keçirilib. Tədbir Azərbaycan Diasporuna Dəstək Fondu və "Qızılbaş" Qlobal İrsi Şurası Təşkilatının birgə dəstəyi ilə baş tutub.**

Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Elşad Əliyev qeyd edib ki, XV əsrin ikinci yarısında meydana çıxmış Azərbaycan qızılbaşlarının qurduğu Səfəvi, Əfşar və Qacar dövlətlərinin Mərkəzi və Cənubi Asiya coğrafiyasında qalan tarixi imperial mirasından uzaq və yaxın perspektivdə ümummilli məqsədlər üçün faydalanmaq tarixi zərurətdir, Diasporla İş üzrə Dövlət Komitəsi bu vacib missiyanın gerçəkləşdirilməsində ilkin fəaliyyətə başlayıb.

Mədəniyyət Nazirliyinin həm də tarixi abidələrin mühafizəsinə məsul olduğunu deyən mədəniyyət nazirinin müavini Fərid Cəfərli təəssüflə qeyd edib ki, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalı nəticəsində bir çox tarixi abidə ilə yanaşı, qızılbaşlara aid irs də erməni vandalizminin qurbanına çevrilib.

Qızılbaş Qlobal İrsi Şurası Təşkilatının sədri Babək Hüseynli konfransda iştirak edən qızılbaş nəsillərinin nümayəndələrini ata yurdunda salamlamaqdan məmnunluğunu vurğulayıb. O, təşkilatın üç il əvvəl Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə yaradıldığını söyləyib. B.Hüseynli

Qeyd edək ki, konfransın açılış mərasimində "Qızılbaş" Qlobal İrs Şurasının Pakistan, Türkiyə, ABŞ, Kanada, Birləşmiş Krallıq, Sinqapur və Əfqanıstan üzrə təmsilçiləri, Milli Məclisin deputatları, Qızılbaş irsinin Azərbaycan və Türkiyədən olan tədqiqatçıları, müxtəlif dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Konfrans işini panel iclasları ilə davam etdirib.

# İrəvanda canlı yayım şousu – sülhə “razılıq” və anti-Rusiya ovqatı

## Yaxud erməni baş nazirin yeni fantaziyaları

**Ermənistan baş naziri Nikol Paşinyanın canlı yayıma çıxması, ölkəsi ilə bağlı məsələləri açıqlaması, o cümlədən, özünə ünvanlanan sualları cavablandırması diqqəti bir neçə cəhətdən çəkməkdədir. Birincisi, Nikol son vaxtlar hakimiyyətinə qarşı daha kəskin xarakter almış təzyiqləri neytrallaşdırmaq istəyir. İkincisi, o, özünün demokratik lider obrazını cəmiyyətə sırımağa çalışır, ucuz populizmini, belə demək mümkünsə, satışa çıxarır. Üçüncüsü, indiki durumda reallıqlar ətrafında manipulyasiya yolu tutur, erməni ictimai rəyini bu müstəvidə iqtidarın tərəfində saxlamaq istəyir. Dördüncüsü isə Paşinyan xaricə, yəni onu hakimiyyətə gətirən qüvvələrə, guya, iş gördüyünü sübuta yetirməyə çalışır.**

### KTMT-dən çıxmaq üçün bəhanə...

Ermənistan baş nazirinin canlı yayımda üzərində dayandığı ilk məsələ ölkəsinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə münasibətlərinin hazırkı durumudur. Əlbəttə, bu münasibətlər, istər-istəməz, Ermənistanın Rusiya ilə əlaqələrinə nəzər salınmasını aktuallaşdırmaqdadır. Əlaqələr isə son dərəcə gərgindir. Paşinyanın fikirləri gərginliyə xüsusi rəng qatmaqdadır. Onun sözlərinə görə, Ermənistan hakimiyyətinin müşahidələri göstərir ki, KTMT-nin hərəkətləri və ya hərəkətsizliyi qurumun İrəvan qarşısındakı öhdəliklərini yerinə yetirmək məqsədi daşımır. Bu məqamda Nikolun bir qədər də “irəli getdiyini” söyləyə bilərik. O, faktiki olaraq, KTMT üzvlüyündən çıxma eyhamları vurur və deyir ki, siyasi iradə var və lazım gələrsə, Ermənistanın maraqlarına uyğun qərar veriləcək. Nikol onu da vurğulayır ki, İrəvan qurumu tam başa düşmək və mövqeyini başa düşülən etmək üçün mümkün olan hər şeyi reallaşdırmaq istəyir. Nəticə budur: Ermənistan KTMT ilə bağlı durumu dramatikləşdirməyə çalışacaq və təşkilata üzvlükdən ayrılmaq yolunda daha münbit şərait yetişdirəcək. Yəni, ölkənin qarşısına qoyduğu məqsəd üçün bütün vasitələr, həmçinin bəhanələr “aktuallığını” qoruyacaq. Paşinyanın ən başlıca vəzifəsi isə Ermənistanda anti-Rusiya köklənişini diri saxlamaq, bu tendensiyanın sıradan çıxmasına imkan verməməkdir.

### “Anklavlar məsələsi” və sülh gündəmi

Paşinyanın üzərində dayandığı digər məqamlar Azərbaycanla bağlıdır. Əlbəttə, söhbət bizim üçün maraqlı olan məqamlardan gedir. Bu baxımdan ilk növbədə anklavlardan söz açaq. Paşinyan bildirib ki, Azərbaycanla sülh prosesində anklavlar və eksklavlar məsələsi həllini tapmalıdır və bunun üçün bir neçə variant olsa da, ortada obyektiv razılaşma yoxdur.

Erməni baş nazir sözügedən məsələnin Azərbaycanla sülh danışıqlarının tərkib hissəsi olaraq götürülməsindən də danışıb. Deyib ki, Ermənistan və Azərbaycan arasındakı sülh prinsiplərindən biri hər iki ölkənin Sovet Ermənistanının və Sovet Azərbaycanının sərhədlərinə əsaslanaraq, qarşılıqlı şəkildə ərazi bütövlüklərinə hörmətlə yanaşmalarıdır. Onun sözlərinə görə, Ermənistanın ərazisinin 29,8 min kvadratkilometr olduğunu deyəndə, bura Sovet İttifaqı dövründə Azərbaycana məxsus olan anklavlar daxil deyil. Ermənistan ərazisinə isə Sovet Azərbaycanı ərazisi ilə əhatə olunmuş Artsvaşen (Gədəbəy rayonundakı Başkənd) eksklavı daxildir. Nikol bu məsələnin birtəhər həllini tapmalı olduğunu bildirib: “Biz Artsvaşen məsələsini qaldıranda, təbii ki, Azərbaycan da öz növbəsində Sovet İttifaqının təsviri, xəritələri və qərarları əsasında de-yure mövcud olan anklavlar məsələsini qaldırır. Desək ki, anklavlardan söhbət gedə bilməz, onda onu da deməliyik ki, eksklavdan da söhbət getməməlidir. Ancaq hər iki sual var. Ona görə də bu iki məsələ sülh prosesində həllini tapmalıdır”.

Göründüyü kimi, N.Paşinyan burada erməni ictimai rəyinə hesablanmış çox incə gediş edir. O, ölkəsinin Başkənd məsələsini qaldırdığını deyir və guya buna qarşılıq Azərbaycanın anklavlar məsələsini irəli sürdüyünü iddia edir. Əlbəttə, söhbət heç də ondan getmir ki, problemi birinci kim ortaya qoyur. Burada vacib məqam Paşinyanın anklavları da sülh gündəliyinin tərkib hissəsi kimi görməsidir. Bu, son dərəcə vacibdir. Çünki biz əvvəllər Qərb vasitəçilik xəttində məsələnin fərqli təqdimatlarına şahidlik etmişik. Amma məlumdur ki, Azərbaycan tərəfi xüsusən də lokal xarakterli antiterror tədbirlərindən sonra məhz Ermənistanın anklavları qaytarmalı olduğunu vurğulayır. Bu məqamda bir neçə variantın olduğunu deyən Nikolun konkret nə söylədiklərinə diqqət yetirək: “Biz mövcud de-yure anklavlar üzərində Azərbaycanın, Artsvaşen üzərində isə öz suverenliyimizi təsdiq edirik. Burada çoxlu suallar yaranır. Birincisi, bu eksklavın ərazisi demarkasiya edilməlidir, çünki onun nə qədər böyük olduğunu bir daha təsdiqləmək lazımdır. İkincisi, məsələni fiziki parametrlərlə həll etsək, onda belə bir sual yaranır: Bizim Artsvaşenlə birbaşa sərhədimiz yoxdur, biz öz sərhədimizdən Artsvaşenlə Azərbaycan sərhədinə qədər mövcud ərazini necə keçəcəyik”.

N.Paşinyanın sözlərindən gəlinən qənaət budur ki, anklavlar məsələsi praktik olmalıdır. Yəni, kimdə hansı ərazi varsa, həmin ərazilər saxlanılmalıdır. Bu, təxminən ərazi mübadiləsinə oxşayır. Qeyd edək ki, mövcud xüsusda adı çəkilən səkkiz kənddən yeddisi – Qazax rayonunun Sofulu, Barxudarlı, Bağanıs Ayrım, Qızıl Hacılı, Yuxarı Əskipara, Aşağı Əskipara və Xeyrimli, biri isə Naxçıvanın Kərki



kəndidir. Başkənd (Artsvaşen) kəndi isə Azərbaycanın nəzarəti altındadır. 1991-ci il Alma-Ata Bəyannaməsinə əsasən, həmin səkkiz kənd Azərbaycan SSR-in, bir kənd Ermənistan SSR-in ərazisi kimi tanınıb. Hər iki ölkə bu ərazilərlə birlikdə BMT-yə qəbul edilib.

Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov oktyabrın 31-də keçirdiyi mətbuat konfransında da bildirmişdi ki, Ermənistanla delimitasiya prosesi zamanı işğal olunmuş səkkiz kənd Azərbaycana qaytarılmalıdır. Onu da vurğulamaq lazımdır ki, Kərki və Başkənd dövlət sərhədindən xeyli aralıda yerləşir. Ona görə də bir çox siyasi ekspertlər indiki şəraitdə bu kəndlərin qarşılıqlı mübadiləsini ən uğurlu variant sayırlar. Əlbəttə, bu variant Azərbaycan dövlətinin rəsmi mövqeyi deyil. Paşinyanın təklifinə görə isə Ermənistan ərazisi ilə əhatə olunmuş eksanklavlar və anklavlar de-yure Ermənistanın ərazisi, Azərbaycan ərazisi ilə əhatə olunanlar Azərbaycan ərazisi hesab edilsin. Ancaq onun Başkənd baxımından yuxarıda diqqətə çatdırdığımız fikirləri belə deməyə əsas verir ki, Nikol bu kəndin ərazisini daha böyük götürmək niyyətindədir. Hətta mümkündür ki, səkkiz kənd qədər. Ondan nə desən çıxar. Elə başlıca manipulyasiya da məsələnin məhz bu tərzdə qoyuluşundadır.

### Qarabağa qayıdış, yoxsa “qayıdış oyunu”

Paşinyanın canlı yayım zamanı üzərində dayandığı başlıca məqamlardan biri də Qarabağ ermənilərinin bölgəyə qayıdışı idi. Onun sözlərinə görə, məsələ müxtəlif beynəlxalq platformalarda müzakirə olunur. Lakin Nikol hesab edir ki, qayıdış mümkün deyil: “Bu mövzunu müzakirə və təhlil edərək başa düşürəm ki, bu gün qayıdış qeyri-realdır. Niyə? Çünki sentyabrın 19-dan sonra Qarabağdan olan bacı və qardaşlarımızı bölgəni tərk etməyə məcbur edən vəziyyət yarandı. Etnik təmizləmə mühiti və siyasəti dəyişməyib. İnsanların bu gün və bu şəraitdə qayıdışı real olsaydı, onlar heç oradan getməzdilər”.

Göründüyü kimi, Paşinyan yenə manipulyasiyasından qalmır. Əslində, erməni baş nazir bu mənada haqlıdır ki, əgər Qarabağ erməniləri bölgədə qalmaq istəsəydilər, oranı tərk etməzdilər. Bir daha aydın olur ki, erməni əhalinin yaşadıqları yerlərdən çıxmaları məqsədli plan imiş. Ermənistan iqtidarı məsələni anti-Azərbaycan ritorikasının tərkibinə daxil edib və belə görünür, gələcəkdə də bu “dəstxəttinə” sadiq qalmağı düşünür. Necə də sadiq qalmasın, axı hazırda Qarabağ ermənilərinə yardım xüsusunda Ermənistana xaricdən milyonlar axır. Paşinyan və komandası isə bu vəsaitdən imtina edən deyil. Ona görə Nikol hazırda Qarabağ ermənilərinin qayıdışını “real görmür”. Üstəlik, Paşinyan deyəsən, bir məsələni də həll edib. Əvvəllər Qarabağın erməni əhalisi üçüncü ölkəyə yön alırdı. Hazırda Nikolun söylədiklərindən belə çıxır ki, erməni iqtidarı bu kəsimi ölkədə qalıb Azərbaycana qarşı alətə çevrilməyə razı salmağı bacarıb: “Qarabağdan zorla köçürülən bacı-qardaşlarımız arasında nəzərəçarpacaq dərəcədə mühacirət yoxdur və bu mənada mən öz məmnunluğumu bildirmək istəyirəm”.

### Növbəti manipulyasiya cəhdi

Əlbəttə, canlı yayım zamanı Paşinyanın üzərində dayandığı ən vacib məqam bilavasitə Azərbaycanla sülh gündəliyinin özü idi. Onun sözlərinə görə, qarşıdakı danışıqlar zamanı İrəvan Bakının Avropa İttifaqının vasitəçiliyi ilə müəyyənləşdirilmiş üç prinsip əsasında sülh müqaviləsini imzalamağa razılaşıb-razılaşmayacağı ilə bağlı məsələyə aydınlıq gətirməyə çalışacaq.

Məlum olduğu kimi, bu üç prinsip 2023-cü il mayın 14-də və iyulun 15-də Azərbaycan Prezidenti İlham Əliyevin, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Paşinyanın üçtərəfli görüşlərinin nəticəsində meydana çıxıb. Birinci prinsip hər iki ölkənin bir-birilərinin ərazi bütövlüklərini tanımalarıdır. İkinci prinsip delimitasiya prosesinin siyasi əsasının Alma-Ata Bəyannaməsi kimi təsdiqlənməsi ilə əlaqədardır. Paşinyanın sözlərinə görə, bu prinsip əsnasında Ermənistanın və Azərbaycanın sərhədlərinin delimitasiyası üçün Sovet İttifaqı Silahlı Qüvvələrinin Baş Qərargahının 1974-1990-cı illərdəki xəritələrindən istifadə barədə anlaşma var (?). Üçüncü prinsip isə qarşılıqlılığa və bərabərliyə, ölkələrin yurisdiksiyalarına və suverenliyinə hörmət əsasında regional kommunikasiyaların açılmasıdır.

Nikol bildirib ki, guya, Azərbaycan hazırda bu üç prinsip üzrə sülh müqaviləsini imzalamaqdan imtina edir. Onun sözlərinə görə, Azərbaycan Ermənistanın ərazi bütövlüyünü tanıdığını bəyan etsə də, onun Ermənistanın ərazi bütövlüyü dedikdə nəyi nəzərdə tutduğuna aydınlıq gətirmək lazımdır. “Bu məsələlərin aydınlaşdırılması qarşıdan gələn danışıqlar prosesinin əsas problemidir və biz onu həll etməyə çalışmalıyıq”, – deyə Nikol Paşinyan vurğulayıb.

İlk baxışdan, N.Paşinyanın söylədiklərindəki bəzi məqamlar müsbət təsir bağışlamaqdadır. Onun sözlərindən belə çıxır ki, Azərbaycanla sülh gündəliyi çox sadə xarakterə malikdir. Ancaq məlumdur ki, mövcud istiqamətdə manipulyasiyalara yol verən Ermənistanın özüdür. Elə həmin Paşinyan bir müddət əvvəl Qranada prinsiplərini ehkamlaşdırmaq yolunu tuturdu. Həmin prinsiplərdə isə Qarabağ ermənilərinin bölgəyə qayıtmalarının beynəlxalq təminatlarından söz açılırdı. Görünür, hazırda təminatlar məsələsi, belə demək mümkünsə, aradan qalxdığına görədir ki, Nikol Qarabağ ermənilərinin bölgəyə qayıdışını qeyri-real sayır. Belədə sual yaranır: Kim deyə bilər ki, Bakı yuxarıda sadalanan üç prinsipi qəbul edib danışıqlar masasına oturmağa qərar versə, həmin masada Qranada gündəliyi ortaya atılmayacaq?

Digər tərəfdən, Ermənistanın 44 günlük müharibənin məğlubu kimi üzərinə götürdüyü öhdəliklər var. Həmin öhdəliklərə görə, Azərbaycanın digər əraziləri ilə Naxçıvanın əlaqəsi təmin edilməlidir. Birincisi, müəyyən deyil ki, sülh müqaviləsi bağlandıqdan sonra İrəvan buna gedəcək, ya yox. Yəni, indiki halda kommunikasiyaların suveren hüquqlar əsasında açılması məntiqində qeyri-müəyyənlik var.

İkincisi, Qərbdəki dostları Naxçıvana yolun Paşinyanın təqdim etdiyi tərzdə açılmasını istəyirlər. Nəinki istəyirlər, onlar, həmçinin Ermənistanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat üzrə üzərinə götürdüyü öhdəlikləri kənara atırlar. Bu, azmış kimi, Azərbaycanın Naxçıvana yolun İran ərazisindən keçməsi məntiqinə qarşı da cəbhə açaraq, məsələni Ermənistanla sülh gündəminin tərkib hissəsinə qatırlar. Mövcud durumda da heç bir təminat yoxdur ki, sülh masasında əlavə nələrsə ortaya çıxarılmayacaq. Bütün bunları nəzərə alaraq, belə qənaətə gəlirik ki, həmişə olduğu kimi, sonuncu canlı yayımda da Paşinyanın avazı yaxşı gəlirdi, amma oxuduğu Quran deyildi.

**Ə.CAHANGİROĞLU**
**XQ**

---

**Rusiyanın, guya, 44 günlük müharibə ilə İrəvanı cəzalandırması tezisi Ermənistanda fəal şəkildə müzakirə olunur. Mövcud xüsusda Qarabağın itirildiyini bildirənlər var. Baş nazir Nikol Paşinyan bu və digər məqamlara canlı yayımda çıxış edərkən toxunub. O deyib ki, 44 günlük müharibədən əvvəl Qarabağa müvəqqəti statusun verilməsi ilə bağlı məsələlər gündəmdə olub, Bu, nə deməkdir, söz açacağıq. Hələlik isə bildirək ki, Nikolun məqsədi 44 günlük müharibədən sonra Ermənistanın düşdüyü acınacaqlı duruma görə, iqtidarına ünvanlanan təzyiqləri sıradan çıxarmaq, özünün günahsız olduğu görüntüsünü yaratmaqdır. Onun digər məqsədi isə ənənəvi anti-Rusiya xəttini möhkəmləndirməkdir.**

# Sarkisyanın “Qarabağ məyusluğu”ndan Paşinyanın “günah keçisi” axtarışınadək

## *Nikolun anti-Rusiya xətti və erməni avantürizmindəki çatların anonsu*

Bəli, Paşinyan sözünə başlar-başlamaz vurğulayıb ki, Rusiyanın 44 günlük müharibə ilə Ermənistanı cəzalandırdığı tezisi üzrə Moskvanı müzakirə obyektinə çevirməyin tərəfdarı deyil. Amma söz-söhbət ciddi müstəviyə keçdiyindən, ona münasibət bildirməlidir. Nikolun ilk sualı budur: “Belə olan halda, 2016-cı ilin dördgünlük müharibəsində (Aprel müharibəsini nəzərdə tutur – red.) kim kimi və nəyə görə cəzalandırıb?”.

Paşinyan Qərbyönümlü hakimiyyətin Rusiya tərəfindən cəzalandırıldığı məntiqinə qarşı cəbhə açır. Nikol nə üçün belə davranır? Çünki Ermənistanın ictimai rəyində ölkənin hazırkı vəziyyətini, o cümlədən, müharibə uğursuzluğunu Qərbə bağlayan qüvvələr aktivləşiblər. Baş nazir buna görə də 2016-cı ilin Aprel müharibəsini yada salır. Daha doğrusu, həmin müharibədəki uğursuzluğu. Axı, o zaman hakimiyyətdə ruspərəstlər idilər. Yəni, demək istəyir ki, məsələ cəzalandırılmada deyil. Bəs nədədir? Paşinyan bu barədə söz açarkən, onun nələri vurğulamasına da diqqət yetirəcəyik.

Ümumən, N.Paşinyan Ermənistan daxilindəki “ölkə Qərbə yaxınlığa və Rusiyadan uzaqlaşmağa görə cəzalandırılır” tezisini “bütün bəlaların kökü Rusiyadadır” deyimi ilə əvəzləməkdə israrlıdır. Ona görə canlı yayımda danışarkən, keçmişə gedib çıxır. Məsələn, 2013-cü ilə.



O bildirir ki, həmin il erməni hakimiyyəti Qərblə assosiasiya sazişini imzalamağa yaxın olub. Ancaq bir gecədə hər şey puça çıxıb, bütün razılaşmalar ləğv edilib və nəticədə Ermənistan Avrasiya İqtisadi Birliyinə – Moskvanın hakim rol oynadığı təşkilata qoşulub...

Nikol daha bir neçə sual ünvanlayır: “Rusiya niyə 2011-ci ildə Azərbaycanla çoxmilyardlıq silah müqaviləsi imzaladı? Belə olan halda 2013–2014-cü illərdə baş verən hadisələrə münasibət necə oldu?” Yəni, Paşinyan demək istəyir ki, Kremlin Bakını silahlandırması Ermənistanın mənafeyinə zidd idi, ancaq birinci buna getdi. Üstəlik, 2013 və 2014-cü illərdə cəbhə xəttindəki gərginlikləri yada salan erməni baş nazir, əslində, vurğulayır ki, bu səbəbdən hazırda baş verənlərə Moskvanın Qərbyönümlü erməni hakimiyyətini cəzalandırması prizmasından yanaşmamalıdır. Burada subliminal mesaj Rusiyanın, ümumən Ermənistanla müttəfiqliyə xilaf çıxması üzərindədir.

*

Ermənistan baş naziri ölkə müxalifətinin onun Qarabağ məsələsində Azərbaycanla gizli danışıqlar aparmasına və bölgəni Azərbaycana verməyə razılaşmasına dair qabartdığı fikirlərə münasibət bildirərkən, iddiaların həqiqəti əks etdirmədiyini vurğulayıb. “Mən Qarabağla bağlı hər şeyi deməmişəm. Qarabağ məsələsi haqqında çox danışmaq olar. Çünki bu nəzəriyyə (Qarabağın Azərbaycana verilməsi iddiası – red.) doğrudursa, o zaman (prezident) Serj Sarkisyanın 2018-ci ilin aprelindəki müharibə anonsu nə demək idi? O, uzun müddət Azərbaycanın Qarabağ məsələsinin müharibə yolu ilə həllinə yanaşmasından əl çəkəcəyinə ümid edə bilmədiyini, danışıqlar prosesinin dalana dirəndiyini deyəndə nəyi elan etdi?” – deyən N.Paşinyan Qarabağın əldən gedəcəyinin Ermənistanın özündən əvvəlki hakimiyyətinə də yaxşı bəlli olduğunun üzərinə gəlir. Bu mənada, Nikolun 2018-ci ildə Qarabağ məsələsi üzrə danışıqlardakı vəziyyətin bəzi təfərrüatlarını təqdim etməsi də maraqlıdır.

“Bu gün biz Qarabağla bağlı məşhur qərarı, “Qarabağ dövləti”nin (separatçı rejimin -red.) ləğvini müzakirə edirik. Lakin 2016-cı ildəki və 2018-ci il inqilabından əvvəlki danışıqlarda Serj Sarkisyanın təqdir etdiyi müvəqqəti statusun nə olduğu mövzusuna da toxunmalıyıq”, – deyən N.Paşinyan əlavə edib ki, guya BMT Baş Assambleyası Qarabağın öz həyatının təşkili yolları və vasitələrinə dair BMT Baş katibinin təklifi ilə BMT Təhlükəsizlik Şurası tərəfindən bəyənilməli, həmçinin Azərbaycanla və həmsədrlərlə müzakirəyə çıxarılmalı olan qətnamənin qəbulunu planlaşdırdı. O, aralıq statusu kimi dəyərləndirdiyi məsələnin bölgədə mövcud “dövlət nizamı”nın ləğvi və yeni sistemin formalaşdırılması demək olduğunu diqqətə çatdırıb. Yəni, Paşinyan bildirmək istəyir ki, Qarabağdakı separatçı rejimin ləğvi məsələsi elə o zaman da aktual idi.

*

Beləliklə, bir daha bildirək ki, bu fikirləri gündəmə gətirən Ermənistan baş naziri Qarabağdakı mövcud vəziyyətə, o cümlədən, bölgənin itirilməsinə görə öz iqtidarının günahlandırılmasına qarşı çıxır və faktiki olaraq onsuz da baş verməli olanların yaşandığını vurğulayır. Əlbəttə, mövcud kontekstdən yanaşsaq, Nikolu, müəyyən mənada, haqlı saymaq mümkündür. Həm də ona görə haqlı saymaq mümkündür ki, Ermənistanda Koçaryan–Sarkisyan xuntasından əvvəl hakimiyyətdə olmuş Levon Ter-Petrosyan da beynəlxalq birliyin Qarabağı Azərbaycan ərazisi kimi qəbul etdiyini vurğulayır və İrəvanın bu düşüncəni dəyişmək imkanında olmadığını önə çəkirdi. Paşinyanın sözlərindən bu qənaətə gəlmək mümkündür ki, eyni fikrə Sarkisyan da, nəhayət ki, gəlibmiş. Amma diqqət yetirək, vaxtilə prezident L.Ter-Petrosyan bunu bildirəndə ölkədə, faktiki olaraq, çevriliş baş verdi və hakimiyyətə Robert Koçaryan yiyələndi. Bu yiyələnmə həmin vaxtadək Qarabağ danışıqlarındakı nəticələri alt-üst etdi, münaqişə uzandı. Nikolun söylədiklərindən belə çıxır ki, Sarkisyan da vaxtilə Ermənistanın birinci prezidentinin gəldiyi qənaətə gəlibmiş. O zaman sual yaranır: Sarkisyana planlaşdırılanı həyata keçirməyə nə mane oldu? Cavab birməmalıdır: Paşinyanın hakimiyyətə gəlməsi.

Yeri gəlmişkən, bir məqamı da vurğulayaq. Paşinyan 2018-ci ildə Sarkisyan hakimiyyətini devirib iqtidara yiyələnəndə, Azərbaycandan vaxt istəmişdi. Vaxt istəmişdi və danışıqları dayandığı yerdən davam etdirəcəyi vədini vermişdi. Danışıqların dayandığı yeri isə Nikol indi özü təsvir edir. Ancaq məsələ burasındadır ki, ölkəmizdən vaxt istəyən baş nazir sonradan sərxoş olub Cıdır düzündə rəqs etmiş, Xankəndidə “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını vermişdi. Beləliklə, bilavasitə müharibə üçün əsas yaratmışdı. Üstəlik, Paşinyan iqtidarı bir az da “irəli gedərək” “yeni ərazilər üçün yeni müharibələr” şüarını irəli sürmüşdü. Deməli, erməni baş nazirin hazırda, əsl həqiqətləri açıqlayırmış kimi danışıb, özünü təmizə çıxarması manipulyasiyadır. Onun söylədiklərində heç bir səmimiyyət yoxdur.

**Ə.RÜSTƏMOV**
**XQ**

# Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin edən lider

**Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 2003–2023-cü illər Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinə möhtəşəm 20 il kimi daxil olub. Bu gün həmin tarixi vərəqlədikcə bir daha Ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyev zəkasının, uzaqgörənliyinin, zəngin dövlətçilik təcrübəsinin onun ən layiqli davamçısının müstəqil Azərbaycanın dövlət başçısı kimi fəaliyyətində uğurlu davamı görürük.**

Ulu öndər Heydər Əliyevin dünya miqyaslı siyasi xadim və qüdrətli dövlət başçısı olaraq müstəqilliyimizi düşmən dairələrin basqısından xilas edib möhkəmləndirməsi, sonrakı inkişaf və uğurların əsaslarını yaratması çağdaş dövlətçiliyimizin təməlini təşkil edir. Dahi şəxsiyyət bir-birinə zidd olan iki müxtəlif ictimai-siyasi sistemdə Azərbaycanın milli maraqlarının qorunmasını və yüksək səviyyədə inkişaf etdirilməsini böyük uzaqgörənlik və məharətlə təmin etmişdir.

1969-cu il iyulun 14-də Azərbaycan SSR-də siyasi hakimiyyətə gələn ulu öndər Heydər Əliyev keçmiş SSRİ-nin iqtisadiyyatı üçün xammal və ucuz işçi qüvvəsi mənbəyinə çevrilmiş respublikamızın yeni iqtisadi, sosial və siyasi inkişaf strategiyasını hazırlayıb qısa müddətdə reallaşdırdı.1970–1982-ci illərdə, tarixən qısa bir dövr ərzində, respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə respublika o illərdə Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. O illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi.

Həmin illərin Azərbaycanı nəhəng bir tikinti meydanını xatırladırdı. Bakının və respublika rayonlarının siması büsbütün dəyişmişdi. Nəticə olaraq əvvəllər bütün əsas göstəricilər üzrə ölkə miqyasından geri qalan Azərbaycan tezliklə Sovet İttifaqının ən inkişaf etmiş respublikalarından birinə çevrildi. 1969–1982-ci illərdə respublikada milli gəlir 2,5 dəfə, sənaye istehsalı 2 dəfə, kənd təsərrüfatı məhsulları 2,7 dəfə, xalq istehlakı malları isə 3 dəfədən çox artmışdı. Azərbaycan iqtisadiyyatında köklü struktur və keyfiyyət dəyişiklikləri baş vermişdi.

Əlbəttə, islahatlar təkcə iqtisadi sahəni əhatə etmirdi. Təhsil, elm və mədəniyyət sahələrində də böyük uğurlar qazanılmışdı. Heydər Əliyevin Azərbaycanın gələcəyini düşünərək uzaqgörənliklə atdığı addımlardan biri də gələcəyin müstəqil ölkəsi üçün gərəkli ixtisaslara yiyələnməkdən ötrü gənclərimizi keçmiş Sovetlər İttifaqının nüfuzlu ali məktəblərinə göndərmək ənənəsinin əsasını qoyması idi. Bu yolla Azərbaycanımızın elmi və kadr potensialı yüksəldiyi kimi, xalqımızın milli-mənəvi, əxlaqi dəyərləri də qorunub inkişaf etdirilirdi. Həmin illərdə Azərbaycanda ali mülki və hərbi məktəblər, bir sıra başqa təhsil müəssisələri yaradıldı. Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəb, Gəncədə Azərbaycan Texnologiya Universiteti bunun bariz nümunəsidir.

Texnologiya Universitetinin əsası 1970-ci ildə ulu öndər Heydər Əliyevin böyük səyləri nəticəsində qoyulmuşdur. SSRİ rəhbərliyi bu ali məktəbin Gəncədə yox, Ermənistanın şəhərlərinin birində yaradılmasını istəyirdi. Ancaq Azərbaycan liderinin qətiyyəti belə bir gərəkli təhsil müəssisəsinin Gəncədə yaradılmasına nail oldu. İlk olaraq Politexnik İnstitutunun filialı kimi fəaliyyətə başlayan ali təhsil müəssisəsi 1980-ci ildə Heydər Əliyevin səyi ilə Azərbaycan Texnologiya İnstitutu adı ilə müstəqil ali məkətəbə çevrildi. Ümummilli liderin müvafiq qərarı əsasında 2000-ci ildə bu ali təhsil ocağına universitet statusu verildi.

Bu gün də uğurla fəaliyyət göstərən Azərbaycan Texnologiya Universiteti ölkəmizdə bir sıra sahələrdə mühəndis kadrların yetişdirilməsində fəal iştirak edir. Azərbaycan Texnologiya Universiteti istər müasir dövrün tələblərinə uyğun ixtisasları ilə, istərsə də yetişdirdiyi mühəndis kadrları ilə Qarabağımızın bərpasına da öz töhfəsini verir. Bu gün qida mühəndisliyi, şərabçılıq, ekologiya, nəqliyyat, metallurgiya, informasiya texnologiyaları və digər ixtisaslar üzrə mühəndis, dizayn, turizm, iqtisadiyyat və idarəetm sahələri üzrə mütəxəssislər hazırlayan Texnologiya Universiteti gənc kadrların yetişdirilməsində böyük xidmətlər göstərməkdədir.

Ötən əsrin 70–80-ci illərində totalitar rejimin hakim olduğu kommunist imperiyasında elm və mədəniyyət xadimlərinə, ziyalılara qarşı ağır təzyiqləri, təqib və təhdidləri özünü aşkar hiss etdirdiyi halda qorxmaz, cəsur, möhkəm iradə sahibi olması sayəsində Heydər Əliyev Azərbaycanda yaradıcı insanlar üçün sərbəst düşünmək və fəaliyyət göstərmək, milli idealagiyanın əsaslarını formalaşdırmaq, Azərbaycanın gələcək müstəqilliyini təmin edən dəyərləri inkişaf etdirmək imkanı və şəraiti yaratmışdı.

Ulu öndər Heydər Əliyevin 1969–1982-ci illərdə Azərbaycana birinci rəhbərliyi dövründə xalqın tarixi yaddaşının özünə qaytarılması prosesinə yol açaraq milli ruhun hədsiz yüksəlişini təmin etmişdi. Böyük rəhbər xalqımızın qəlbində illərdən bəri sıxılıb qalmış milli dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi üçün münbit zəmin yaratmışdı. Müasir Azərbaycan dövlətinin inkişafı məhz həmin illərdə formalaşdırılmış sağlam bünövrə üzərində qurulub və bu gün də uğurla davam etdirilir.

1991-ci ildə Azərbaycan sovet rejiminin buxovlarından azad oldu. Müstəqilliyin ilk 2 ili böyük çətinliklər və əzablar içərisində yaşandı. Ərazilərinin böyük bir hissəsini itirən Azərbaycan Respublikası, digər tərəfdən də iqtisadi böhran, siyasi anarxiya və xaos içərisində boğulurdu. XX əsrdə artıq ikinci dəfə idi ki müstəqilliyini əldə edən Azərbaycan onu itirmək təhlükəsi ilə üz-üzə qalmışdı.

1993-cü ilin yayında Azərbaycanda yaranmış vəziyyət müstəqilliyin dayaq sütunlarını, milli-ideoloji əsaslarını, suveren dövlətçilik institutlarını yaratmaq və onu həyata keçirmək üçün güclü dövlət siyasətini və eyni zamanda, milli liderin olmasını tələb edirdi. Həmin dövrdə Azərbaycanda Heydər Əliyev kimi şəxsiyyətin olması, düşünürəm ki, Azərbaycan xalqı üçün böyük bir xoşbəxtlk idi. Belə bir vəziyyətdə xalqın böyük təkidi və tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan idarəçilik dühası Heydər Əliyev ölkədə cərəyan edən bütün təhlükəli proseslərin qarşısını aldı.

Məhz dövlət müstəqilliyini qoruyub saxlamaq, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və bu rəmzləri yaşatmaq, ölkənin ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq və digər ümummilli məqsədlər 1993-cü ildə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin gərgin və qətiyyətli əməyi sayəsində mümkün olmuşdur.

Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin ən böyük xidməti ondan ibarət oldu ki, o, Azərbaycan dövlətçiliyini qoruyub saxlaya bildi. Dövlətçiliyin qorunub saxlanması isə müstəqilliyin, azadlığın qorunub saxlanması demək idi. Köklü islahatlar aparıldı, ictimai-siyasi sabitlik təmin edildi, demokratiyanın inkişafı yolunda mühüm addımlar atıldı. Azərbaycan nüfuzlu, etibarlı, perspektiv imkanları olan bir dövlət kimi dünya dövlətləri birliyinə daxil olaraq layiqli yerini tutdu.

Müstəqil dövlətçilik dövrünün inkişafında yeni tarixi mərhələ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi hakimiyyətə gəlməsi ilə başladı. Ümummilli lider Heydər Əliyevin xalqımızın firavan gələcəyinə hədəflənmiş məqsədyönlü siyasəti yeni tarixi mərhələnin lideri İlham Əliyev tərəfindən uğurla davam etdirilərək Azərbaycanı müasir dövrün daha yüksək mərhələsinə qaldırdı.

Son 20 il müstəqil Azərbaycanın tarixində o qədər əlamətdar bir tarix oldu ki, bu dövr ölkəmizdə əsrlərə bərabər tərəqqi mərhələsi sayılır. Müstəqil dövlətimiz bu 20 ildə bütün sahələrdə böyük uğurlar qazandı, daim zirvələrdən-zirvələrə yüksəldi. Bu uğurların əsas lokomotivi isə Prezident İlham Əliyevin zamanı qabaqlayan ideyaları, strateji düşüncələri və verdiyi taleyüklü qərarlar oldu.

20 ilin təcrübəsi sübut edir ki, Prezident cənab İlham Əliyev öz fəaliyyətini daim xalqla bir yerdə olmaq və xalqa ləyaqətlə xidmət etmək əsasında qurub. Ölkə rəhbərinin hələ 2003-cü il prezident seçkiləri ərəfəsində “Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam, hər bir Azərbaycan vətəndaşının qayğı və problemlərinin həlli yolunda bütün qabiliyyət və bacarığımı əsirgəməyəcəyəm” bəyanatı sonrakı 20 illik fəaliyyətində öz parlaq əksini tapdı. Bütün bunlar Prezident İlham Əliyevin nə qədər mötəbər, ancaq xalqın və dövlətin mənafeyi üçün çalışan, uzaqgörən bir lider olduğunun bariz göstəricisidir.

2003-cü il oktyabr ayının 1-də dahi şəxsiyyət Heydər Əliyev xalqa müraciət edərkən demişdir: “Üzümü sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram.O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan




Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

2003-cü ilin oktyabrında xalqın yekdil dəstəyi ilə yeni tipli lider İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilərkən ölkənin gələcək taleyinə görə məsuliyyəti Ümummilli lider Heydər Əliyevin davamçısı kimi öz üzərinə götürmüşdü. İlham Əliyevin ölkəyə rəhbərlik missiyasını davam etdirməsi, həm də xalqın istəyi və ümidi idi. Prezident cənab İlham Əliyev mövcud şəraitə adekvat yanaşmaları, düzgün və məqsədyönlü qərarları, eyni zamanda, müasir dünyanın çağırışlarına uyğun addımları ilə xalqın inamını doğrultdu. Dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitliyi qorudu, milli birlik və qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətini daha da inkişaf etdirərək hər bir Azərbaycan vətəndaşının Prezidenti oldu.

Ölkə rəhbəri İlham Əliyev hər bir dövlətin, cəmiyyətin həyat qayəsini təşkil edən iqtisadiyyatı müasir strateji dövrdə yeni bir səviyyəyə yüksəltdi. Dövlət başçımızın qəbul etdiyi dövlət proqramlarının əsasında regionların inkişaf etdirilməsinin ardıcıl surətdə həyata keçirilməsi ilə Azərbaycan kəndləri özünün çoxəsrlik tarixində görünməmiş yüksəliş səviyyəsinə qalxmışdır. Bu, regionların inkişaf etdirilməsinin İlham Əliyev modelidir və Azərbaycan kəndini ölkəmizin əsas məşğulluq mərkəzlərinə çevirmək vəzifələrinin həyata keçirilməsinin bariz nümunəsidir. Məhz regionların hərtərəfli və məqsədyönlü şəkildə inkişaf etdirilməsinin əməli nəticəsidir ki, artıq Azərbaycan Respublikasının dövlət büdcəsinin formalaşmasında neft gəlirlərindən asılılıq, demək olar ki, aradan qaldırılmış, aqrar sektorun rolu nəzərəçarpacaq səviyyədə artmışdır.

Ümummilli lider Heydər Əliyevin imza atdığı “Əsrin müqaviləsi”ni Prezident İlham Əliyev “Əsrin əfsanəsi”nə çevirdi. XXI əsrin ən böyük neft-qaz kəmərləri olan Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft-qaz magistralları Azərbaycan neft strategiyasının real uğurlarındandır. Son 20 ildə məqsədyönlü şəkildə həyata keçirilmiş uğurlu neft-qaz siyasəti nəticəsində Azərbaycan neftinin və qazının Avropa ölkələrinə çatdırılması, bu ölkələrin xilası və inkişafında rol oynaması Prezident İlham Əliyev tərəfindən inanılmazların reallığa çevrilməsi hadisəsindən ibarətdir. Artıq dünya ölkələrində də TANAP–TAP kimi beynəlxalq neft-qaz layihələrinə əsrin əfsanəsi kimi yüksək qiymət verilir.

İndi bir çox Avropa ölkələrində insanların yaşayışını və iqtisadi inkişafını Azərbaycanın nefti və qazı olmadan təsəvvür etmək mümkün deyildir. Həm də dünyanın hazırki çətin və mürəkkəb geosiyasi şəraitində Prezident İlham Əliyevin nəhəng neft-qaz layihələrini uğurla həyata keçirmək məharəti Azərbaycana etibarlı dostlar və tərəfdaşlar qazandırıb. Bu isə öz növbəsində beynəlxalq təşkilatlarda, habelə dünya ölkələri ilə ikitərəfli əlaqələrin möhkəmləndirilməsində imkanlarımızın daha da artmasına və qüvvətləndirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Bakı–Tbilisi–Qars dəmir yolu kimi Avropa ilə Asiyanı əlaqələndirən xəttin çəkilib başa çatdırılmasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi iradəsi və uzaqgörənliyi həlledici rol oynamışdır. Hazırda Bakı–Tbilisi–Qars dəmir yolu Çin Xalq Respublikasının dövlət siyasəti səviyyəsində elan etdiyi “Bir kəmər – Bir yol” strategiyasının Qafqaz regionundakı əsas ötürücü vasitəsi kimi dünya ölkələri üçün də əlverişli nəqliyyat qovşağı hesab olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın 25 sentyabr 2023-cü il tarixində Naxçıvan şəhərində imzaladıqları Niyyət Protokolunun müddəalarında Bakı–Tbilisi–Qars dəmir yolunun Qars–İğdır–Sədərək vasitəsilə muxtar respublikaya qədər daha bir qolunun çəkilməsinə dair razılaşmanın öz əksini tapması bu magistralın Naxçıvan-Təbriz-Tehran vasitəsilə Orta Asiyaya doğru daha bir marşrutunun açılmasına şərait yaradır. Ona görə də, haqlı olaraq Bakı–Tbilisi–Qars dəmir yolunu beynəlxalq aləmdə Dəmir İpək yolu da adlandırırlar.

Azərbaycan Respublikasının erməni işğalından azad edilmiş torpaqlarında - Füzuli şəhərində və Zəngilanda salınmış beynəlxalq hava limanları da ölkəmizin dünyaya açılan qapıları kimi mühüm əhəmiyyətə malikdir. “Şimal–Cənub” magistralı isə Azərbaycanı avtomobil yollarının da əsas qovşaqlarından birinə çevirəcək. Beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olan Zəngəzur dəhlizinin açılmasına nail olmaqla Prezident İlham Əliyev qalib Azərbaycanı regionun və dünyanın əsas nəqliyyat mərkəzlərindən birinə çevirəcək.

Uğurlu xarici siyasət kursu və sabit diplomatik münasibətlər Prezident İlham Əliyev dövrünün mühüm göstəricilərindəndir. Dünya ölkələri və region dövlətləri ilə qarşılıqlı etimada əsaslanan sağlam münasibətlərin qurulması və inkişaf etdirilməsi ölkə Prezidentinin xarici siyasət kursunun reallığı və böyük uğurudur. Azərbaycan Respublikasının Prezidentinin təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının xüsusi iclasının çağırılması və dövlət başçımızın irəli sürdüyü problemlərin beynəlxalq müstəvidə müzakirəyə çıxarılması xarici siyasət sahəsində nadir tarixi hadisədir.

Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi də müstəqil dövlətimizin böyük uğurudur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dünyanın ikinci beynəlxalq təşkilatı olan Qoşulmama Hərəkatına uğurla sədrlik etməsi dövlət başçımızın dünya liderlərindən biri olduğunu sübut edir. İslam Əməkdaşlıq Təşkilatında və İqtisadi Əməkdaşlıq Təşkilatında Azərbaycanın söz sahibi olması respublikamızın beynəlxalq nüfuzunun müasir reallıqlarıdır.

Xalqımızın milli-mənəvi özünüdərk proseslərinin daha da dərinləşdirilməsində, yeni nəsil yazıçıların meydana çıxmasında, vətənpərvər müasir nəslin formalaşmasında müstəsna rolu olan Prezident cənab İlham Əliyevin çoxcəhətli, məqsədyönlü fəaliyyətinin uğurları sırasında elm və ədəbiyyat sahəsindəki nailiyyətlər də xüsusi yer tutur. Çoxəsrlik tariximizdə ilk dəfə qeyd edilən “Nizami Gəncəvi İli” , “İmadəddin Nəsimi İli” Azərbaycan ədəbiyyatı klassiklərinin həyatı və yaradıcılığının dərindən araşdırılaraq dünyada təbliğ olunmasına xidmət etdi. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə keçirilən “Heydər Əliyev İli” çərçivəsində reallaşan tədbirlər xalqımızda müstəqil dövlətçilik təfəkkürünün dərinləşdirilməsinə və möhkəmləndirilməsinə xidmət edən mühüm siyasi-ideoloji dərslərdir.

Ölkəmizdə “Multikulturalizm İli” isə beynəlxalq aləmə bir daha göstərdi ki, dünyanı etnik, dini və irqi baxımdan müxtəlif münaqişələr bürüdüyü halda multikulturalizm ideologiyasını dövlət siyasəti səviyyəsinə qaldıraraq bir modelə çevirmək böyük insanlıq nümunəsidir. Bu sahədə Azərbaycan nəinki region dövlətlərinin, həmçinin dünya dövlətlərinin də örnək ala biləcəkləri nümunədir.

Gənclər və idman siyasəti dövlət başçısı İlham Əliyevin hakimiyyətə gəldiyi ilk gündən əsas prioritet sahələrdən biridir. Son 20 il ərzində ölkənin demək olar ki, əksər bölgələrində böyük idman komplekslərinin tikilib istifadəyə verilməsi, həmin komplekslərdə Azərbaycanın bayrağını dünyanın müxtəlif idman arenalarında qürurla dalğalandıran idmançıların yetişməsi uğurlu siyasətin əsas göstəricilərindəndir. Çox böyük uğurla Avropa və İslam Olimpiya oyunları keçirən, əsas idman növləri üzrə beynəlxalq yarışlara ev sahibliyi edən Azərbaycan dünyanın ən inkişaf etmiş idman ölkələrindən birinə çevrilmişdir.

Əlbəttə, böyük qürur hissi ilə deyə bilərik ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət başçısı kimi 20 illik fəaliyyətinin ən böyük zirvəsi 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərdir. Müzəffər Ali Baş Komandanın işğalçı Ermənistan üzərində qazandığı bu tarixi Zəfər XXI əsrdə dünyada haqqın qələbəsi ilə başa çatmış ən ədalətli müharibə nümunəsidir.

Azərbaycanın Qarabağın azadlığı uğrunda apardığı savaş beynəlxalq aləmdə yeni müharibə texnologiyasının tətbiqinə əsaslanmaqla təkrarsızdır. Bu, dünya hərb tarixində ən qısa müddətdə qələbə ilə başa çatmış müharibə olaraq da əhəmiyyətlidir. Qalib Ali Baş Komandan “Dəmir yumruq”la 20 sentyabr 2023-cü il tarixdə cəmi bir gün ərzində Qarabağda keçirilmiş antiterror tədbirləri ilə daha bir mühüm tarixi zəfərə imza atdı.

Prezident İlham Əliyev 30 illik işğaldan sonra ölkəsinin tarixi torpaqlarını düşmən əsarətindən azad edən, rəhbərlik etdiyi dövlətin tam ərazi bütövlüyünə nail olmağı bacaran liderdir. Azərbaycan Respublikasının mütləq suverenliyinin təmin edilməsi və üçrəngli möhtəşəm Azərbaycan bayrağının vətənimizin bütün şəhər və rayonlarında dalğalandırılması cənab Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin və qəhrəman Azərbaycan zabitinin, əsgərinin möhtəşəm tarixi Zəfəridir.

İşğaldan azad edildikdən dərhal sonra Azərbaycan öz tarixi dədə-baba torpaqlarında sürətli bərpa və quruculuq işlərinə start verib. Tamamilə xarabalığa çevrilmiş böyük şəhər və rayonlarımız bir-birinin ardınca bərpa edilir və məskunlaşma aparılır. İnanırıq ki, ölkə Prezidentinin qətiyyətli və uğurlu siyasəti nəticəsində yaxın gələcəkdə işğaldan azad edilmiş bütün yaşayış məskənlərimiz müasir dövrün tələblərinə uyğun formada tikiləcək və o bölgələrimizə şən və gülərüz həyat geri qayıdacaq.

Beləliklə, Azərbaycan xalqının və dövlətinin həyatında xüsusi tarixi mərhələ olan bu 20 ilin nailiyyətləri Prezident cənab İlham Əliyevin “Heydər Əliyev İli”nə möhtəşəm töhfəsidir.

***Yaşar ÖMƏROV,***
***Azərbaycan Texnologiya Universitetinin rektoru vəzifəsini müvəqqəti icra edən***

# Milli Məclisdə

### Ağdərə rayonu yenidən yaradılır

**Dünən Milli Məclisin Regional məsələlər komitəsinin iclası keçirilib. Komitə sədri Siyavuş Novruzov gündəliyə iki məsələnin – “Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında” və “Azərbaycan Respublikasının Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Qubadlı, Laçın və Şuşa rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında” Qanun layihələrinin daxil edildiyini bildirib. O, hər iki sənədin ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim olunduğunu qeyd edib.**

Komitə sədri müzakirəyə çıxarılan “Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında” qanun layihəsinin tarixi ədalətin bərpası baxımından mühüm əhəmiyyət kəsb etdiyini deyib. O, Ağdərə rayonunun qədim dövrlərdən başlayaraq bugünədək tarixi barədə geniş məlumatı diqqətə çatdırıb. Qeyd edib ki, Ağdərə rayonu 1992-ci il oktyabrın 13-də ləğv olunaraq, onun ərazisi Kəlbəcər, Tərtər və Ağdam rayonlarının inzibati ərazilərinə verilib. Bildirilib ki, 2023-cü ilin 19-20 sentyabrında aparılan lokal antiterror tədbirləri zamanı Ağdərə azad edilib. Azərbaycan Prezidenti İlham Əliyev bu il oktyabrın 15-də Ağdərə şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaldıb.

Qanun layihəsinə əsasən, 1660,83 kv.km ərazidə yaradılacaq Ağdərə rayonuna Kəlbəcər rayonundan 735,84 kv.km, Tərtər rayonundan 851,25 kv.km və Ağdam rayonundan 73,74 kv.km ərazi veriləcək.

Müzakirələrdə çıxış edən parlamentin komitə sədrləri və deputatlar qanun layihələrini məqsədə müvafiq hesab ediblər. Deputatlar işğaldan azad edilmiş ərazilərin bərpasının və yenidən qurulmasının bu gün prioritet məsələ olduğunu, təklif edilən dəyişikliklərin bu regionların sosial-iqtisadi inkişafına xidmət edəcəyini bildiriblər.

Müzakirələrin sonunda hər iki qanun layihəsi baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

### Futbol komandası bürünc medal qazanıb



**Noyabrın 23–27-də Türkiyənin Antalya şəhərində Türkiyə Respublikasının 100-cü ildönümünə həsr olunmuş beynəlxalq parlamentlərarası futbol turniri keçirilib. Turnirdə Türkiyə, Azərbaycan, Rumıniya, Bolqarıstan, Bosniya və Herseqovina, Macarıstan və Gürcüstan parlamentlərinin komandaları iştirak ediblər.**

B qrupunda mübarizə aparan Milli Məclisin komandası, ümumilikdə, 4 oyunda 3 qələbə qazanaraq, yarışı bürünc medallarla başa vurub. Komandamızın yeganə məğlubiyyəti yarışı çempion kimi tamamlayan Rumıniya komandasına qarşı oyunda qeydə alınıb.

***Ə.BƏDƏLOV***
***XQ***

## Azərbaycan Asiya Parlament Assambleyasına sədrlik edəcək

**Türkiyənin Antalya şəhərində Asiya Parlament Assambleyasının (APA) İcraedici Şurasının iclası keçirilib.**

20 dövlətin parlament nümayəndə heyətinin təmsil olunduğu toplantıda Azərbaycan Asiya Parlament Assambleyasının 2024–2025-ci illər üzrə sədri seçilib.

## Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2023-cü ilin dekabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1 | **“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru** Ruslan Əliyev | **Zaqatala** | Zaqatala, Balakən | **04** |
| 2 | **Baş prokuror** Kamran Əliyev | **Sumqayıt** | Sumqayıt, Qubadlı | **05** |
| 3 | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Quba** | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı | **07** |
| 4 | **Ədliyyə naziri** Fikrət Məmmədov | **Şabran** | Şabran, Xaçmaz, Siyəzən | **07** |
| 5 | **Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasının sədri** İnam Kərimov | **Şirvan** | Şirvan, Hacıqabul | **07** |
| 6 | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Xızı** | Xızı, Siyəzən | **08** |
| 7 | **Mədəniyyət naziri** Adil Kərimli | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **08** |
| 8 | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Ağsu** | Ağsu, İsmayıllı | **09** |
| 9 | **“Azərişıq” ASC-nin sədri** Vüqar Əhmədov | **Lənkəran** | Lənkəran, Astara | **11** |
| 10 | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Abşeron** | Abşeron, Sumqayıt, Qubadlı, Zəngilan | **14** |
| 11. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Mübariz Qurbanlı | **Sumqayıt** | Sumqayıt, Abşeron, Xızı, Qubadlı, Zəngilan | **14** |
| 12 | **Energetika naziri** Pərviz Şahbazov | **Şabran** | Şabran, Xaçmaz, Quba, Qusar, Siyəzən, Xızı | **15** |
| 13 | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Göyçay** | Göyçay, Mingəçevir, Yevlax, Ağdaş, Kürdəmir, Ucar, Zərdab | **15** |
| 14 | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Masallı** | Masallı, Yardımlı | **15** |
| 15 | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Şəmkir** | Şəmkir, Ağstafa, Qazax, Tovuz, Gədəbəy | **15** |
| 16 | **“Azəristiliktəchizat” ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **Neftçala** | Neftçala, Salyan | **15** |
| 17 | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Siyəzən** | Siyəzən, Xızı | **19** |
| 18 | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Biləsuvar** | Biləsuvar, Cəbrayıl | **21** |
| 19 | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | **Qusar** | Qusar, Quba | **2** |
| 20 | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Ağdam (Quzanlı qəsəbəsi)** | Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Tərtər, Xocalı, Xocavənd, Şuşa | **2** |
| 21 | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | **Şamaxı** | Şamaxı, İsmayıllı | **2** |
| 2 | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **İmişli** | İmişli, Beyləqan, Füzuli | **2** |
| 23 | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Salyan** | Salyan, Neftçala | **2** |
| 24 | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Lənkəran** | Lənkəran, Astara, Lerik | **2** |
| 25 | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Siyəzən** | Siyəzən, Xızı | **2** |
| 26 | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Şirvan** | Şirvan, Hacıqabul | **2** |
| 27 | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Masallı** | Masallı, Yardımlı | **26** |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# Hər cür müqayisə qüsurludur

## Azərbaycan Qərb–Rusiya qarşıdurmasında deyil, Ermənistanla sülh əldə olunmasında maraqlıdır

**(əvvəli 1-ci səhifədə)**

### Sülhə vasitəçilik davası, yoxsa?

Son vaxtlar Qərbin ermənipərəst dairələrinin məlum “təşəbbüslərinin” Moskvanı əməlli-başlı təbdən çıxarmasının şahidi oluruq. Artıq Qərb–Rusiya qarşıdurmasının açıq diplomatik müstəviyə keçdiyini söyləyə bilərik. Elə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovun “Rusiya-1” telekanalına müsahibəsində dediyi fikirləri də məhz bu kontekstdən nəzərdən keçirilməlidir. Peskovun sözlərinə görə, Qərb dövlətləri Rusiyanı Qarabağdan sıxışdırıb çıxarmağa çalışırlar. O, Rusiyanın Cənubi Qafqazdan, Ermənistan və Azərbaycandan deyil, məhz Qarabağdan çıxarılması cəhdlərindən danışıb. Kremlin sözçüsünün bu qüsurlu müqayisəni apararkən konkret nəyi nəzərdə tutduğu bilinsə də, cavabın bu formulda verilməsinin özü müəyyən suallar doğurur. Rusiya sülhməramlı hərbi kontingentinin suveren Azərbaycanın tərkib hissəsi olan Qarabağda mövcudluğu məsələsinə aydınlıq gətirməyən D.Peskov vurğunu Qərbin destruktiv fəaliyyətinin üzərinə qoyur:

“Üç, dörd, beş il əvvəl belə bir mübarizə diplomatik maskaların altında aparılırdı. Artıq indi bu maskalar kənara atılıb və onlar üzbəüz, açıq şəkildə mübarizəyə girişiblər. Həqiqətən də bir sıra ölkələr hələ də Qarabağ ətrafında sabitliyi pozmağa çalışırlar. Yeri gəlmişkən, Azərbaycan tərəfi də rəsmi şəkildə bəyan etdi ki, bu ölkələr sülh prosesində, çətin ki, hər hansı vasitəçi roluna iddia edə bilərlər. Çünki onlar qərəzli və birtərəfli vasitəçi rolunu öz üzərlərinə götürüblər. Və təbii ki, belə birtərəfli mövqe tutmaqla nəyəsə ümid etmək həm mümkün deyil, həm də yersizdir. Bizi Qarabağdan sıxışdırmağa çalışdıqlarını bilirik. Amma bu vaxta qədər Rusiyadan savayı heç kim bölgədə sülhün və sabitliyin təminatçısı rolunu oynamaq iqtidarında deyil. Rusiya bu gün də öz səylərini davam etdirir”.

D.Peskovun sözlərinə bir növ dəstək olaraq onu deyə bilərik ki, Bakıya da bölgədə “sülhün və sabitliyin təminatçısı rolunu” sonadək oynamağı bacaran tərəfsiz vasitəçi lazım idi. Amma son üç ilin təcrübəsi göstərdi ki, bu missiyanı yerinə yetirməyə iddialılar ya bunu bacarmadılar, ya da Ermənistanın xeyrinə tərəfkeşlik edərək vaxtı uzatmaqla məşğul oldular.

### Təşəbbüs yeni reallıq yaradanın əlindədir

Məhz bu xarakterli “səbəblər toplusuna” görə Azərbaycan hakimiyyəti İrəvana sülh dialoqunu “Qafqaz evi”nin içində “tet-a-tet” aparmağı və bütün suallara vasitəçisiz aydınlıq gətirməyi təklif edib. Belə bir təşəbbüsü irəli sürməyə Bakının tam haqqı var. Ona görə ki, qalib tərəf kimi Cənubi Qafqazda yeni geosiyasi reallığı yaradan Azərbaycan həm də sülhün və təhlükəsizliyin əldə olunmasının ən doğru variantını yaxşı bilir. Əslində, bu variant Ermənistan üçün düşdüyü ikitərəfli diplomatik mənqənədən, “siyasi dalandan” ən uğurlu çıxış yolu sayıla bilər.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bildirib ki, Qərbin bəzi dövlətləri Rusiyanın Cənubi Qafqazda təsir imkanlarını minimuma endirməkdən ötrü müxtəlif üsullara əl atırlar:**



“Ancaq bunun Qarabağa aiddiyyəti yoxdur. ABŞ və Fransanın əsas məqsədi, İrəvanın istəyinə uyğun olaraq, Ermənistandakı Rusiya hərbi bazasını özlərinin silahlı kontingenti ilə əvəz etməkdir. Amma məsələ ondadır ki, Qarabağda Rusiya hərbi kontingentini əvəz etmək mümkün deyil. Çünki Qarabağ bölgəmizdə müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarını evinə yol salmağa çalışan Azərbaycan heç bir halda onları başqa bir ölkənin hərbi qüvvəsi ilə əvəz etməyə icazə verməyəcək. Bunu Peskov da bilməlidir”.



Məlum güclərin Qarabağ ətrafında sabitliyi pozmağa çalışdığına, regionda Rusiyaya qarşı açıq mübarizə apardıqlarına diqqəti yönəldən E.Şahinoğlu hazırda Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsindən ötrü gündəmdə Bakının irəli sürdüyü iki təklifin mövcud olduğunu dedi: “Bunlar Ermənistan və Azərbaycan arasında birbaşa, vasitəçilərsiz dialoq və Ankaranın da dəstəklədiyi “3+3” formatıdır. Bakı münaqişənin məhz bölgə çərçivəsində, “tet-a-tet” sülh danışıqlarında həlli variantına üstünlük verdiyini rəsmi səviyyədə bəyan edib. Hesab edirəm ki, İrəvan gec-tez sülhün əldə olunmasının bu formatına razılığını bildirəcək”.

### Fransanın müharibə hazırlıqları?

Yeri gəlmişkən, Qərbin Cənubi Qafqazda yeni müharibəni alovlandırmaq cəhdlərinin əyani sübutu kimi son vaxtlar Fransanın apardığı təxribatçı hərbi-siyasi fəaliyyətini göstərmək olar. KTMT üzvü olan Ermənistanın əsgərlərinə hazırda Fransanın təxminən yeddi poliqonunda təlim keçirlər. Bu barədə rusiyalı hərbi bloger Anastasiya Kaşevarovanın Teleqram kanalında yaydığı məlumatında deyilir ki, bu təlimlərə cəlb olunan erməni hərbçiləri Rusiyaya qarşı müharibədə iştirak etmək üçün hazırlanır. A.Kaşevarova məlumata təlimdən çəkilmiş foto və video sübutları da əlavə edib.

“Xüsusilə, Mayi-le-Kan ərazisindəki “Centre d'entrainement au combat” döyüş hazırlığı mərkəzi və “Center d'entrainement des post de” poliqonunda fransız təlimatçılar erməni əsgərlərə, əsasən də “artsax”dan gələn gənclərə müasir döyüş taktikasını öyrədirlər. Onlara, həmçinin NATO silahları ilə davranmaq vərdişləri aşılanır. Təlimlərdən sonra erməni hərbçiləri Şimal Hərbi Dairəsinin sərəncamına göndəriləcək”, – yazan Kaşevarova NATO standartlarına uyğun hazırlanan erməni əsgər və zabitlərinin məhz Rusiya ilə döyüşə hazırlandığı qənaətini bir daha vurğulayıb.

Erməni əsgərlərinin Fransada təlim keçmələri barədə informasiya yadımıza cari ilin oktyabrın ortalarında Ermənistan müdafiə naziri Suren Papikyanın Parisə səfərini saldı. Papikyan orada Fransa Müdafiə Nazirliyi ilə hərbi-texniki əməkdaşlığa dair bir sıra sənədlər imzalamış, hətta yuxarıda adları hallanan təlim mərkəzlərinə baş çəkmişdi. İndi aydın olur ki, ayyarım əvvəlki Paris turnesi zamanı Papikyan hayların “böyük bacısı” ilə hansı “təcrübə mübadiləsi” barədə müzakirələr aparıb.

Xəbərə onu da əlavə edək ki, “Zerqulio” Teleqram kanalı öz platformasında özəl mənbələrinə istinadla Ermənistan hərbçilərinin Fransada Rusiyaya qarşı hərbi təlim keçdikləri barədə məlumat yerləşdirib.

### Ermənistanın “xərclik” statusu

Hər şeydən göründüyü kimi, Qərb Rusiyanın üstünə getmək üçün bu cür taktiki üsullarla İrəvanın “başını bişirməklə” məşğuldur. Birmənalı şəkildə deyə bilərik ki, nə Paris və ya Vaşinqton Rusiyaya qarşı ikinci cəbhəni açmağa cürət edər, nə də Ermənistanın Azərbaycana qarşı üçüncü Qarabağ savaşına başlamasına gücü çatar. Bütün bunlar, sadəcə, Cənubi Qafqaz uğrunda mübarizənin diplomatik imitasiyasından başqa bir şey deyil. İrəvan isə, olsa-olsa, bu siyasi qazanda xərclənəcək “dəfnə yarpağı”na çevrilə bilər.

Ermənistan cəmiyyətində Bakı ilə birbaşa sülh danışıqlarının əleyhinə çıxan siyasi qüvvələr, konkret fərdlər də var. Bunların içərisində Qarabağ separatçılarının keçmiş lideri, Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan xüsusi fəallığı ilə seçilir. İrəvanda restoranlar şəbəkəsinə malik, yerli ermənilərin “Çeburaşka” ayamasını verdikləri psevdosiyasətçi bununla bağlı Ermənistan KİV-lərinə aşağıdakı açıqlamanı verib: “Ermənistan heç bir halda Azərbaycanla birbaşa danışıqlara getməməli və bu təkliflə razılaşmamalıdır”.

S.Sarkisyanın bu açıqlaması bizə çoxdan məlum həqiqəti bir daha ortaya qoyur: Hayastan mühüm qərarların qəbul olunmasında heç vaxt siyasi iradəyə və sərbəstliyə malik olmayıb. İrəvan güvəndiyi və dəfələrlə aldadıldığı “böyük güclər”in dəstəyi olmadan, qorxusu-hürküsüz hərəkət etmək iqtidarında deyil. Bəli, Ermənistan rəhbərliyi həmişə kənar qüvvələrin əlində marionetka rolunu oynayıb. Yüz il bundan əvvəl də belə olub. Tarixin indiki dönəmində bu dəqiq və aydın aksiomu özləri növbəti dəfə nümayiş etdirirlər.

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycanın beynəlxalq daşımalarda rolu və önəmi yüksəlir

## Keçən il ölkə ərazisindən tranzit yüklər 75 faiz artıb



(əvvəli 1-ci səhifədə)

Belə ki, 2021-ci illə müqayisədə keçən il Azərbaycan ərazisindən keçən tranzit yükdaşımaların ümumi həcmi 75 faiz artaraq 10,7 milyon tona çatıb. Beləliklə, artan tələbatın qarşılanması, respublikasının tranzit potensialının daha da gücləndirilməsi, eləcə də ərazimizdən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün ölkə rəhbəri tərəfindən qarşıya bir sıra mühüm vəzifələr qoyulub. Bu, dövlətimizin başçısının 2023-cü il 23 noyabr tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024−2026-cı illər üçün Fəaliyyət Planı"nda da öz ifadəsini tapıb.

Həmin sənəddə qarşıya qoyulan vəzifələrlə bağlı iki önəmli məqamı diqqətə çatdırmaq istərdik. Belə ki, sənədə əsasən, Bakı və Hövsan limanlarında sərhəd və gömrük nəzarətinin, eləcə də digər rəsmiləşdirmənin səmərəli qaydada aparılmasını təmin edən infrastruktur yaradılacaq, Bakı Limanında yük terminalının konteyner üzrə yükaşırma qabiliyyətinin artırılması üçün infrastruktur genişləndiriləcək və zəruri avadanlıqlar alınacaq. Bundan başqa, idxal, ixrac rejimli yüklər üzrə genişfunksiyalı əməliyyat imkanlarının yaranması nəticəsində Şərq−Qərb istiqamətində yükdaşımalarda konteyner yüklərinin payı artırılacaq, habelə yük avtomobil nəqliyyat vasitələrinin bir mərkəzdə cəmləşməsi (regional qovşaq konsepsiyasına uyğun) təmin ediləcək. Eyni zamanda, Bakı Limanında və Dübəndi Terminalında dibdərinləşdirmə işlərinin aparılması nəticəsində limanın və terminalın akvatoriyasına yükgötürmə qabiliyyəti və suya oturumu daha yüksək olan gəmilərin girişi təmin ediləcək.

2024−2026-cı illər üçün nəzərdə tutulan Fəaliyyət Planında, həmçinin Biləcəri stansiyasının çeşidləmə parkında 3-cü dəstənin dartı yollarının və yoldəyişənlərin, Baş Ələt dəmiryol stansiyasının əsaslı təmiri, Biləcəri−Yalama dəmiryol xətti üzrə kontakt şəbəkə və mikroprosessor əsaslı rabitə-işarəvermə sisteminin yenidən qurulması nəzərdə tutulub. Eyni zamanda, Bakı−Böyük Kəsik dəmiryol xəttinin elektrik təchizatı sisteminin yenidən qurulması ilə bağlı işlərin başa çatdırılması, Ucar−Bakı hissəsinin mikroprosessor əsaslı rabitə-işarəvermə sisteminin yenidən qurulması, Yevlax−Böyük Kəsik sahəsində 38 yoldəyişənin və 7 qəbul-göndərmə yolunun əsaslı təmiri planlaşdırılıb.

Adıçəkilən Fəaliyyət Planında bildirilir ki, beynəlxalq iqtisadi əməkdaşlığın və ticarətin əsas aparıcı elementlərindən biri olan nəqliyyat və logistika əməliyyatları, xüsusilə, son illərdə yeni istiqamətdə inkişaf edir. Qloballaşma və inteqrasiya proseslərinin sürətlənməsi, yüksək texnologiyaların geniş tətbiqi ilə xarakterizə olunan müasir beynəlxalq ticarət sistemləri bütövlükdə milli iqtisadiyyatın, eləcə də ayrı-ayrı sahələrin qarşısında müəyyən vəzifələr qoyur, xarici ticarət iştirakçılarının artan gözləntilərinin və müasir çağırışlarının gerçəkləşməsinə müsbət təsir göstərir.

Son illərdə qlobal təchizat zəncirində fasiləsizliyin təmin edilməsi, ölkələr arasında ticarətin asanlaşdırılması, malların daşınması zamanı nəqliyyat vasitələrinin sərhədkeçmə prosedurlarının sadələşdirilməsi, risk qiymətləndirilməsi əsasında fiziki yoxlamaların minimuma endirilməsi, eləcə də aidiyyəti dövlət qurumları arasında elektron məlumat mübadiləsinin həyata keçirilməsi məqsədilə əməliyyatların optimallaşdırılması tranzit potensialının inkişafı üçün xüsusi əhəmiyyət daşıyır. Dinamik dəyişən dünyanın tələb və gözləntiləri ilə uzlaşmaq üçün bir sıra logistik trendləri, o cümlədən regional qovşaqlar, çevik təchizat zənciri, özəl sərmayələrin dövlət infrastrukturunda iştirakı, eləcə də şəffaf və izlənilə biləcək tranzit dövriyyəsinin yaradılması kimi trendləri də diqqət mərkəzində saxlamaq zəruridir.

Bu məqsədlə tranzit daşımaların müasir, avtomatlaşdırılmış və məlumat əsaslı prosesə transformasiyası üçün yüksək texnologiyalardan istifadənin geniş tətbiqi gözlənilir. Qlobal tədarük zəncirində Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və regional qovşağa çevrilməsi perspektivinin reallaşdırılması istiqamətində hədəflərə nail olmaq üçün güclü infrastrukturun yaradılması, innovativ logistik həlləri təmin edən zonaların inkişaf etdirilməsi, normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində zəruri addımlar atılması xüsusi önəm daşıyır. Bununla yanaşı, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi üçün nəqliyyat infrastrukturlarının müasirləşdirilməsi, logistika mərkəzlərinin və azad iqtisadi zonaların yaradılması, Azərbaycanın normativ hüquqi aktlarının beynəlxalq hüquqi tənzimləmə alətlərinə (konvensiyalara, çoxtərəfli beynəlxalq sazişlərə və s.) uyğunlaşdırılması, həmçinin nəqliyyatda təhlükəsizliyin gücləndirilməsi tədbirləri xüsusi əhəmiyyət kəsb edir.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi

**Vəkil HÜSEYNOV,**
**iqtisadçı-ekspert**



Azərbaycanın regionun nəqliyyat-logistika mərkəzinə çevrilməsi istiqamətində son illər bir sıra mühüm layihələr həyata keçirilib. Bu sahədə düşünülən məqsədyönlü dövlət siyasətinin reallaşdırılması nəticəsində Şərq–Qərb və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizlərində vacib infrastruktur obyektləri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı−Tbilisi−Qars dəmir yolu xətti, Astara dəmiryol terminalı, Astaraçay üzərində dəmir və avtomobil yolu körpüləri salınıb. Bu addımlar isə, öz növbəsində, Azərbaycanın regionda etibarlı və təhlükəsiz tranzit ölkəsinə çevrilməsinə zəmin yaradıb.

Bununla yanaşı, Azərbaycan Respublikası beynəlxalq tranzit daşımalarının tənzimləndiyi "Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında" Beynəlxalq Konvensiyaya və "Beynəlxalq Dəmir Yolu Yükdaşımalarına dair Saziş"ə qoşulub. Ölkəmizdə dəmir yolları, dəniz nəqliyyatı və dəniz limanları, eləcə də dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınması sahəsində sərhədkeçmə prosedurlarının və daşıma proseslərinin asanlaşdırılması, habelə bu sahədə fəaliyyət göstərən dövlət qurumları arasında əlaqələndirmə işlərinin təmin edilməsi məqsədilə Prezident İlham Əliyevin 2015-ci il 21 oktyabr tarixli Fərmanı ilə Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası yaradılıb.

Adıçəkilən koordinasiya şurası tərəfindən respublikamızın mühüm regional əhəmiyyətli logistika və ticarət qovşağına çevrilməsi və əsas ticarət marşrutlarından biri kimi beynəlxalq miqyasda etimad qazanması, infrastruktur və əməliyyatlarda təkmilləşdirmə işlərinin səmərəli icrası istiqamətində strategiyanın həyata keçirilməsində dövlət qurumlarının fəaliyyətinin əlaqələndirilməsi sahəsində bir sıra xüsusi əhəmiyyətli tədbirlər görülüb. Məsələn, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı", "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi", Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti və "Azərbaycan Dəmir Yolları" tərəfindən "Tranzit yüklərin daşınması zamanı əməliyyatların idarəedilməsi üzrə Prosedur Qaydalar" qəbul edilib. Bu qaydalar beynəlxalq tranzit daşımaları zamanı ayrı-ayrı əməliyyatlar üzrə yerli operatorların üzərinə düşən vəzifələrin beynəlxalq standartlara uyğun şəkildə çevik və operativ icrasını sürətləndirib.

## "Made in Azerbaijan" portalı yaradılır

**Son illərdə respublikamızın qeyri-neft ixracı sahəsi coğrafi şaxələnmə ilə yanaşı, məhsul çeşidlərinin çoxalması ilə diqqət çəkib. Beynəlxalq sərgi və ticarət yarmarkalarında ölkə sahibkarlarının iştirakına və "Made in Azerbaijan" brendinin xaricdə tanıdılmasına dəstək tədbirləri də ixracın artımını stimullaşdırıb.**

Hazırda xarici ölkələrdə Azərbaycan məhsullarının və mətbəxinin təqdim olunduğu 11 ticarət evi fəaliyyət göstərir. Respublikamızın iqtisadi-ticarət əlaqələrini genişləndirmək, bu sahədə maraqlarını qorumaq və təmsil etmək məqsədi daşıyan ticarət nümayəndəliklərinin fəaliyyəti getdikcə genişlənir.

Bu gün ixracın stimullaşdırılmasında önəmli mexanizmlərdən biri "Made in Azerbaijan" brendinin yayım coğrafiyasının genişləndirilməsidir. İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) tərəfindən Madein-azerbaijan.gov.az portalının yaradılması da bu istiqamətdə atılan addımlar biridir.

AZPROMO-nun məlumatına görə, portalda istifadəçilər üçün şəxsi kabinet, müraciət və bildiriş modulları olacaq.

## 9 ayda Qarabağda tikinti işlərinə 3,9 milyard manat xərclənib

**2023-cü ilin yanvar–sentyabr aylarında ölkəmizin azad edilmiş ərazilərində tikinti quraşdırma işlərinə 3 milyard 870 milyon 593 min manat vəsait sərf edilib.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, bu göstəricinin həcmi 2022-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 2,1 dəfə və ya 2 milyard 41 milyon 758 min manat çoxdur. Belə ki, ötən ilin 9 ayında azad edilmiş rayonlarda tikinti quraşdırma işlərinə 1 milyard 828 milyon 865 min manat vəsait yönəldilib.

Yeri gəlmişkən, hesabat dövründə ən çox vəsait Laçın ( 983 milyon 43 min manat), Kəlbəcər (650 milyon 370 min manat) və Füzuli (585 milyon 624 min manat) rayonlarına ayrılıb. Ümumilikdə isə, tikinti quraşdırma işlərinə sərf edilən vəsait 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə Laçında 7,5 dəfə, Kəlbəcərdə 3,2 dəfə, Ağdamda 2,7 dəfə, Füzuli və Şuşada isə 2 dəfə artırılıb.

***XQ***

# Dağlar, dərələr nura boyanır

## *"Azərişıq" Kəlbəcər və Laçının elektrik şəbəkələrini birləşdirən təchizat sistemi qurur*



**Azərbaycan dövlətinin işğaldan azad olunmuş ərazilərin bərpası ilə bağlı müəyyənləşdirdiyi quruculuq missiyası uğurla davam edir. Hazırda bu ərazilərdə salınan yeni şəhər, kənd və qəsəbələrdə insanların rahat və firavan yaşayışını təmin etmək üçün mühüm infrastruktur layihələri icra olunur. Sevindirici haldır ki, Azərbaycan bütün bu işləri təkbaşına, heç bir ölkədən və beynəlxalq maliyyə qurumundan yardım istəmədən, öz gücü ilə həyata keçirir.**

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa və yenidənqurma işlərinin sürətlə davam etdirilməsi üçün 2023-cü ilin dövlət büdcəsindən daha 5 milyard manata yaxın vəsait ayrılıb. Bütövlükdə isə, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, nəzərdə tutulmuş investisiya proqramı çərçivəsində bu ilin sonuna qədər işğaldan azad edilən yaşayış sahələrinin bərpası ilə bağlı, təqribən, 12 milyard manata qədər vəsaitin xərclənməsi təmin ediləcək.

Göründüyü kimi, Azərbaycan dövlətinin həyata keçirdiyi məqsədyönlü fəaliyyət, xüsusən də dövlət başçısının təsdiq etdiyi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin uğurla yerinə yetirilməsi nəticəsində qədim və əzəli yurd yerlərimiz öz həqiqi sahiblərinə qovuşur. Xatırladaq ki, sözügedən proqramın icrasının birinci mərhələsində işğaldan azad olunmuş ərazilərdə ilkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpası nəzərdə tutulur. Bu da 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkünün öz doğma yurdlarına qayıdacağına imkan yaradacaq.

İşğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri çərçivəsində bütün infrastruktur yenidən qurulur. Ərazilərin dayanıqlı elektrik enerjisi ilə təchizatı sahəsində görülmüş işlər də bu baxımdan diqqət çəkir. Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının enerji ilə təminatı məqsədilə qısa müddətdə 1157 kilometrdən artıq müxtəlif gərginlikli elektrik verilişi xətti çəkilib, 20-dən çox yarımstansiya, eləcə də ümumi gücü 75 MVt olan 13 stansiyanın bərpası yekunlaşdırılaraq istifadəyə verilib.

Hazırda Qarabağ və Şərqi Zəngəzurun bütün ərazilərində olduğu kimi, Kəlbəcər şəhəri, eləcə də rayonun bir sıra digər yaşayış məntəqələrinin elektrik enerjisi ilə təchizatı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Xatırladaq ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, 2021-ci il iyulun 18-də Kəlbəcər şəhəri "Azərişıq" ASC tərəfindən elektrik enerjisi ilə təmin edilib. İlkin mərhələdə rayon ərazisindəki hərbi hissələrə, xüsusi dövlət əhəmiyyətli obyektlərə işıq verilib.

Bu əzəli-əbədi yurd yerimiz işğaldan azad ediləndən dərhal sonra rayonun elektrik enerjisi ilə təchizatını həyata keçirmək məqsədilə mənbə kimi əvvəlcə Gəncədə yerləşən "Gəncə-2" yarımstansiyasından Daşkəsənə 110 kilovoltuq elektrik verilişi xətti çəkilib. Bununla da, Daşkəsən rayonundan Kəlbəcərə 3500 metr yüksəklikdəki Murov dağını keçməklə 70 kilometr məsafədə yüksəkgərginlikli ikidövrəli ötürmə xəttinin qurulması reallaşıb. Sıldırım, keçilməz qayalardan ibarət dağlıq yerlərdə sərt, şaxtalı hava şəraitində qarın qalınlığı 3-5 metrə çatan yolsuz ərazilərdə hündürlüyü 50 metr, çəkisi 10 ton olan anker dayaqlar quraşdırılıb. Bununla paralel olaraq sərt iqlim və çətin relyefdə yerləşən Kəlbəcərdə 110/35/10 kilovoltluq rəqəmsal yarımstansiya tikilib. 2021-ci ilin yayında yarımstansiyanın açılışı olub.

Ötən il iyunun 26-da isə Prezident İlham Əliyevin təməlqoyma mərasimində iştirak etdiyi Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzində hazırda tamamlama işləri görülür. Mərkəzin gələcəkdə rayonun dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təminatında mühüm rol oynayacağı nəzərə alınaraq burada ən müasir avadanlıqlar quraşdırılır. Eyni zamanda, İstisu ərazisində 110-35 kilovoltluq eyni adlı yarımstansiyanın tikintisinə başlanılıb. Görülən işlərin yekununda Kəlbəcər və Laçın rayonlarının elektrik şəbəkələrini birləşdirən dairəvi elektrik təchizat sxemi yaradılacaq.

Rayonun Alagöllər adlandırılan ərazisi çətin relyef, yüksəklik və keçilməz yollar səbəbi ilə sovet hökuməti zamanında belə, elektrik enerjisi ilə təmin edilməyib. Amma dövlətimizin güçü hesabına artıq həmin ərazilərdə də Azərbaycan işığı yanır. Bununla yanaşı, hazırda "Azərişıq" tərəfindən rayonun Zar, Zəylik, İstisu, Ağqaya, Mərcimək və Yellicə istiqamətində də işlər yekunlaşmaq üzrədir. Qeyd edilən kəndlərə elektrik enerjisini daşıyacaq yeni dayaqlar basdırılır, müasir tipli, izolyasiyalı kabel xətləri çəkilir. Bu növ kabel xətləri həm ekoloji cəhətdən əlverişli və təhlükəsizdir, həm də enerji itkisini minimuma endirir. Yüksək dağlıq ərazilərdə kəskin hava şəraitində açıq naqillərdə buzlaşma və meşə zolağından keçən hissədə ağac budağının toxunması nəticəsində tez-tez açılmaların baş verməsi elektrik enersinin verilişində fasilələrə səbəb olur. Belə qəzaların aradan qaldırılması isə kifayət qədər vaxt tələb edir. İzolyasiyalı kabellərdə isə belə problemlərin yaranması qətiyyən mümükün düyil. Üstəlik, açıq kabellərdə mühafizə sonası 30 metr olmalıdır. Xətlərin onlarca kilometr uzunluğunda çəkildiyini nəzərə alsaq, nə qədər boş torpaq sahəsi itkisi olduğunu təsəvvür etmək çətin deyil. İzolyasiyalı kabellərdə isə mühafizə zonası cəmi 4-6 metrdir. Bu da qəza baş verəcəyi halda, texnikaların işləyə bilməsi üçün nəzərdə tutulub.

Onu da qeyd edək ki, Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı strategiyasına uyğun olaraq Kəlbəcər rayonunda "AzərEnerji" tərəfindən indiyədək 6 yerdə kiçik su elektrik stansiyası (SES) yenidən qurularaq istismara verilib. Qurumdan verilən məlumata görə, 2022-ci ildə 4,4 meqavat gücündə "Kəlbəcər-1", 2023-cü ildə isə 8,33 meqavat gücündə "Çıraq-1", 3,6 meqavat gücündə "Çıraq-2", 6,33 meqavat gücündə "Qamışlı", 5,3 meqavat gücündə "Soyuqbulaq" və 3,4 meqavat gücündə "Meydan" kiçik SES-lərinin yenidənqurmadan sonra açılışı olub.

Hazırda Kəlbəcər rayonunda 4 yerdə kiçik SES-lərin tikintisi aparılır. "Aşağı Vəng", "Yuxarı Vəng", "Nadirxanlı" və "Zar" adlanacaq stansiyaların isə 2024-cü ildə istismara verilməsi planlaşdırılıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin 10-cu üçtərəfli görüşü

**Noyabrın 27-də Bakıda Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Türkiyənin milli müdafiə naziri Yaşar Güler və Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze arasında üçtərəfli görüş keçirilib.**



Görüşdə xalqlarımızın əsrlər boyu mehriban qonşuluq və dostluq şəraitində yaşadığı, bu gün də dövlət və hökumət başçılarımızın rəhbərliyi ilə bu əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi qeyd edilib.

Üçtərəfli görüşdə regionun təhlükəsizliyinə təhdid törədə biləcək amillərlə mübarizədə səylərin birləşdirilməsinin vacibliyi qeyd olunub. Müdafiə nazirləri üçtərəfli təlim və treninqlərin əhatə dairəsinin genişləndirilməsinin əhəmiyyətini xüsusi vurğulayıblar.

Müdafiə sahəsində üçtərəfli əməkdaşlığın genişlənməsinin, sadəcə, ölkələrimiz üçün deyil, eləcə də bölgədə sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə də öz töhfəsini verəcəyinə əminlik ifadə olunub.

Görüşdə hərbi, hərbi təhsil, hərbi tibb sahələrində əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər aspektlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Sonda media nümayəndələri üçün mətbuat konfransı keçirilib və üçtərəfli görüşün yekununa dair protokol imzalanıb.

*

**Həmin gün müdafiə naziri, general-polkovnik Zakir Həsənov Türkiyənin milli müdafiə naziri Yaşar Güler ilə görüşüb.**

General-polkovnik Z.Həsənov Azərbaycan ilə Türkiyə arasında hərbi sahədə əməkdaşlığın, strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iki ölkə arasında müdafiə sahəsindəki mövcud əməkdaşlığı və perspektiv imkanlarını yüksək dəyərləndirdiyini xüsusi vurğulayan müdafiə naziri əlaqələrimizin daha da genişləndirilməsi baxımından belə görüşlərin zəruriliyini qeyd edib.

Y.Güler göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkələrimiz arasında qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın bundan sonra da uğurla inkişaf etdiriləcəyinə əminliyini ifadə edib.

Görüşdə birgə təlimlərin intensivliyinin artırılmasının vacibliyi, regionda və dünyada cərəyan edən hərbi-siyasi proseslər, bölgədə sabitliyin təmin edilməsi yolları, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparılıb.

*

**Dünən müdafiə naziri, general-polkovnik Zakir Həsənov ilə Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze arasında da ikitərəfli görüş keçirilib.**

Hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə qonaqları salamlayan general-polkovnik Z.Həsənov Azərbaycan ilə Gürcüstan arasında əlaqələrin inkişafında dövlət başçılarının görüşlərinin mühüm rol oynadığını xüsusi vurğulayıb.

Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən C.Burçuladze Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə əlaqədar həmkarına təbriklərini çatdırıb.

Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın inkişaf perspektivlərindən danışılıb, həmçinin birgə təlimlərin intensivliyinin artırılması barədə ətraflı fikir mübadiləsi aparılıb. Ölkələrin beynəlxalq səviyyədə qəbul olunmuş ərazi bütövlüyünün dəstəkləndiyi diqqətə çatdırılıb.

Sonda müdafiə nazirlikləri arasında 2024-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq planı imzalanıb.

**XQ**



# "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı"

**İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Elmi Tədqiqat İnstitutu tərəfindən Ümummilli liderin anadan olmasının 100 illiyinə həsr edilmiş "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı" mövzusunda beynəlxalq konfrans keçirilib.**

Konfransda iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov çıxış edib. Bildirib ki, Heydər Əliyevin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri Azərbaycanda siyasi və iqtisadi sabitliyin təmin edilməsi, iqtisadiyyatın yenidən qurulması, davamlı inkişaf mərhələsinin başlanmasıdır. Məhz Ulu öndərin həyata keçirdiyi iqtisadi islahatlar nəticəsində bugünkü dinamik inkişaf edən dayanıqlı iqtisadiyyatın təməli qoyulub.

Tədbir çərçivəsində "Heydər Əliyev – canlı xatirələr və iqtisadi strategiya" mövzusunda panel keçirilib, ictimai-siyasi xadim Həsən Həsənov, Milli Məclisin deputatı Ziyad Səmədzadə, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru Misir Mərdanov və BP-nin Xəzər regionunda xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli çıxışlarında ulu öndər Heydər Əliyevin sosial-iqtisadi sahədə apardığı mühüm islahatlardan və yeni neft strategiyasının formalaşmasındakı əvəzsiz fəaliyyətindən söz açıblar.

ESRİ-nin İdarə Heyətinin sədri Mahir Hümbətov konfrans iştirakçılarına İnstitut tərəfindən keçirilmiş "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!" adlı beynəlxalq elmi və praktiki məqalə müsabiqəsi barədə məlumat verib. Müsabiqənin Heydər Əliyev irsinin ölkə hüdudlarından kənarda öyrənilməsi baxımından əhəmiyyət kəsb etdiyi qeyd olunub. Seçilmiş məqalələr İnstitut tərəfindən yeni təsis edilmiş "Strateji iqtisadi düşüncə" (JSET) beynəlxalq jurnalında dərc edilib.

Daha sonra müsabiqədə qalib gələn Azərbaycan, Belarus, Küveyt, Moldova, Pakistan və Türkiyənin təhsil və elmi-tədqiqat müəssisələri, beyin mərkəzlərinin əməkdaşları – Məhəmməd Səmədov, Oleq Leşenyuk, Haila Əlmekaimi, Ruslan Şevçenko, Xalid Taimur Akram, Muhammad Zaman, Mehmood Ul Hassan Xan və Doğacan Başaran təltif ediliblər.

**XQ**

# Füzulidə Azərbaycan və Özbəkistan QHT-lərinin forumu keçirilib

**İşğaldan azad edilmiş ərazilərdə ilk dəfə olaraq Azərbaycanın və Özbəkistanın qeyri-hökumət təşkilatlarının əməkdaşlıq Forumunun açılış paneli keçirilib. Tədbir Füzuli şəhər Mirzə Uluqbəy adına tam orta məktəbdə təşkil olunub.**



Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin nümayəndəsi Tural Əliyev deyib ki, bu gün Azərbaycan-Özbəkistan münasibətləri ən yüksək səviyyədədir. "Bu tarixi uğur Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin yürütdükləri uzaqgörən siyasətə söykənir", - deyə o qeyd edib.

Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov iki ölkə arasında əməkdaşlığın QHT-lər sahəsində də inkişafının önəmini vurğulayıb.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri Turxan Süleyman Özbəkistan dövlətinin Azərbaycana hədiyyəsi olan Mirzə Uluqbəy adına tam orta məktəbin imkanları barədə danışıb.

Özbəkistan Qeyri-Hökumət Qeyri-Kommersiya Təşkilatları Milli Assosiasiyasının İdarə Heyətinin sədri Kamoliddin İşanxocayev iki ölkə arasında əlaqələrin QHT-lər sahəsində də inkişafı üçün bu Forumun vacib təkan olacağını qeyd edib.

*

**Forumda "İmkanlar və perspektivlər" mövzusunda panel müzakirələri təşkil edilib. Müzakirələrin sonunda sual-cavab sessiyası keçirilib.**

Yekunda təşkil olunan konsert proqramında Azərbaycanın tanınmış sənət adamları xalq və bəstəkar mahnılarından ibarət musiqi nömrələri ifa ediblər.

*

**Forumda Özbəkistanın və Azərbaycanın vətəndaş cəmiyyətlərinin təmsilçiləri hər iki ölkənin dövlət başçılarına birgə müraciət ünvanlayıblar.**

Müraciətdə deyilir: "Biz – Özbəkistanın və Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçiləri hər iki qardaş ölkənin dövlət başçılarına – Türk dünyasının nəhəng şəxsiyyətləri olan Prezident İlham Əliyevə və Prezident Şavkat Mirziyoyevə Qarabağdan müraciət etməkdən bəxtiyarlıq duyuruq.

Sizlərə bu müraciəti qəbul etdiyimiz məkan da rəmzidir. Füzuli şəhərində özbək xalqının dahi oğlu Mirzə Uluqbəyin adını daşıyan təhsil ocağı, eyni zamanda, Özbəkistanın və Azərbaycanın daha bir dostluq və qardaşlıq mərkəzidir. Qarabağın bərpası və quruculuğu işinə Özbəkistanın hədiyyəsi olan bu məktəb həmrəyliyimizin parlaq nümunəsidir.

Bu gün bütün dünya Özbəkistanın və Azərbaycanın dostluğuna, birliyinə, bütün beynəlxalq platformalarda bir-birini necə müdafiə etməsinə şahiddir. Azərbaycan-Özbəkistan münasibətləri tarixdə heç vaxt belə yüksək səviyyədə olmayıb. Bu, məhz Sizlərin xidmətidir – cənab Prezident İlham Əliyev və cənab Prezident Şavkat Mirziyoyev!

Biz – hər iki ölkənin vətəndaş cəmiyyəti təmsilçiləri olaraq, bu şəxsi nümunəyə, böyük əməyə, Türk dünyasının güclənməsi, Azərbaycan və Özbəkistanın inkişaf etmiş dövlətlərə çevrilməsi naminə tarixi fəaliyyətinizə görə Sizlərə sonsuz təşəkkür edirik!

Məhəmməd Füzulinin uzun əsrlərdən bəri Özbəkistanda qorunub saxlanan əlyazmalarından birini 2022-ci ildə Daşkənddə Özbəkistan Prezidenti Azərbaycan Prezidentinə hədiyyə etdi. Dahi şair-mütəfəkkir Məhəmməd Füzulinin adını daşıyan Füzuli rayonunda bu hadisəni xatırlamamaq mümkün deyil. Qədirbilən özbək xalqı özbək ədəbiyyatının və poeziyasının banisi Əlişir Nəvainin böyük Nizami Gəncəvinin əsərlərindən ilham almasını, onu "şairlərin şahı" adlandırmasını unutmur.

Bu gün Azərbaycan və Özbəkistan dünya miqyaslı güclü siyasi liderlərinə görə sülh və sabitlik adası kimi sürətlə inkişaf edir. Dünyanın müxtəlif regionlarındakı qanlı hadisələri, toqquşmaları, sonu görünməyən müharibələri ürək ağrısı ilə izləyirik. Bizim ölkələrimiz də bu fəlakətlərə düçar ola bilərdi. Ancaq Azərbaycan və Özbəkistan xalqları müdrik seçimlərində yanılmadılar, onlar ölkələrinin talelərini Prezident İlham Əliyevə və Prezident Şavkat Mirziyoyevə etibar etdilər.

Biz Özbəkistanın və Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçiləri olaraq, Sizlərə üz tutub bildirmək istəyirik ki, apardığınız siyasəti tam müdafiə edirik, Sizlərin yanındayıq!

Biz Azərbaycanı sevirik! Biz Özbəkistanı sevirik!

Yaşasın Özbəkistan-Azərbaycan dostluğu, qardaşlığı!"

*

**Özbəkistanın Qeyri-Hökumət Qeyri-Kommersiya Təşkilatları Milli Assosiasiyasının geniş tərkibdə nümayəndə heyəti Şuşanın görməli yerlərini gəzib, şəhərlə tanış olublar.**

**XQ**

**Replika**

# Saxta "irsinizi" də unitaz kimi söküb aparın!

## *UNESCO-nun Qarabağda "erməni mədəni irsinin" monitorinqini aparmaq xülyası*

Xeyirxah və faydalı iş görən təşkilatların, fərdlərin fəaliyyəti təqdir olunmağa layiqdir. Həmin fəaliyyət daha geniş miqyasda, məsələn, beynəlxalq səviyyədə həyata keçiriləndə onun əhəmiyyəti birə-beş artır. Söhbət BMT kimi nüfuzlu qurumun bir institutunun Azərbaycanın Qarabağ iqtisadi rayonunda icra etməyə hazırlaşdığı "missiyadan" gedəndə isə bu fəaliyyətin sanbalı bir az da çoxalır.

Deməli, dünyada mədəni və qeyri-mədəni irsin mühafizəsi üzrə "ixtisaslaşmış", müəyyən dairələrdə kifayət qədər yüksək statusa malik UNESCO Qarabağa özünün missiyasını göndərməyi planlaşdırırmış. Məqsədi bəşəriyyətin yaratdığı dəyərləri gələcək nəsillərə çatdırmaq olan bu qurum Azərbaycana "dağıdılmaqda olan erməni mədəni irsinin" monitorinqini aparmaq üçün gəlmək istəyirmiş. Missiya budəfəki səfərinin məqsədini bu cür izah edib: "Azərbaycanın işğal etdiyi (?) Hadrut rayonunda erməni mədəni irsinin məhv edilməsi (?) davam etdirilir. Təqdim olunan video-kadrlarda Artsaxın (?) Hadrut rayonunun Uxtadzor (?) kəndində azadlıq müharibəsinə (?) həsr olunmuş abidə dağıdılıb və yerə atılıb".

UNESCO-nun səfər planına əsasən, beynəlxalq monitorinqçilər Hadruta getmək üçün Ağdam yolu ilə Xankəndinə gəlməli idi. Azərbaycan tərəfi missiyaya əvvəlcə, yəni yolüstü erməni işğalçı-vandalların Ağdamda məhv etdikləri tarixi və mədəni abidələrimizə baxış keçirməyi təklif edib. Fəqət UNESCO naməlum səbəbdən erməni işğalçılarının Azərbaycanın tarixi abidələrinə vurduqları ziyanı qiymətləndirməkdən imtina edərək, monitorinqçilərə Xankəndi marşrutu ilə hərəkət imkanı yaradılmasını tələb edib. Aydın məsələdir ki, beynəlxalq missionerlərin bu cür inadkarlğının qarşılığında Bakı mədəni şəkildə "yox" deyib və onlara tələblərinin burada deyil, başqa yerdə keçərli ola biləcəyini xatırladıb.

*

Ezamiyyə xərclərindən ABŞ-dakı erməni lobbisinin ödədiyi pulların qoxusu gələn UNESCO-çular, gözlənildiyi kimi, əlləri ətəklərindən uzun, suyu süzülə-süzülə çıxıb gediblər. Qurumun Qarabağa "xeyirxah" məqsədli missiyası ilə bağlı açıqlamasında qoyduğumuz sualların hər birinin cavabı beynəlxalq monitorinqçilərin gözünə deyil, beyninə tuşlanmalıdır.

Cavablar isə qısaca bu səpkidə olmalıdır: Birincisi, Hadrut işğal edilməyib, 27 ildən sonra erməni qəsbkarlardan azad olunub. İkincisi, tarixi abidə, mədəni irs dediyiniz həmin daş parçası "məhv edilməyib", halal torpağımızdan təmizlənib. Çünki o daşın tarixi kimi, üzərində yazılanların saxta və uydurma "pasport" olduğunu sübuta yetirmək çox asandır. Üçüncüsü, müasir tarix və coğrafiya "Artsax" adında separatçı rejimi deyil, Azərbaycanın Qarabağ iqtisadi rayonunu tanıyır. Dördüncüsü, təpəsi uçurulmuş həmin mozaikalı "tarixi abidə" hansısa "azadlıq müharibəsinin" yox, Azərbaycanın öz torpağında kökünü kəsdiyi separatçı rejimin bədnam izləridir. Beşincisi, özünüzdən uydurmayın, o beton-armatur qalağında mədəni irsdən əsər-əlamət belə yoxdur.

Dediklərimizin davamı kimi onu da qeyd edək ki, Qarabağda, hələ də, haradasa gizlənib qalmış "erməni mədəni irsinin nümunələrinin" hamısı, ən azı, sanitar-gigiyenik nöqteyi-nəzərdən təmizlənəcək ki, doğma torpağımız həm də "montelərin", "njdelərin" üfunət qoxusundan azad olsun.

**ARAYIŞ:** *Qarabağ ərazisində erməni işğalçıları tərəfindən 67 məsciddən 65-i məhv edilib, 2-si isə dağıdılıb. Zəngəzur vilayətinin Qafan, Meqi, Xot, Şinuayr, Əlidərə yaşayış məntəqələrində 900-dən çox tarixi-mədəni abidəmizin yalnız xarabalığı qalıb. 1987-ci ildə başlanan etnik təmizləmədən sonra Ermənistan ərazisində azərbaycanlılara məxsus 3500 tarixi və mədəni abidə, 500 qəbiristanlıq, 391 məscid yerlə-yeksan edilib.*

*BMT-nin sahə qurumu sayılan UNESCO-nun missionerlərinin Hadrutdan əvvəl Ermənistanda göstərdiyimiz ünvanlara baş çəkmələri daha məntiqli olmazmı? Axı, mədəni irsin qorunub saxlanması missiyası təkcə Azərbaycan ərazisini əhatə etmir.*

*Kəlbəcər rayonunu boşaldarkən evlərindəki unitazı söküb maşına yükləyən haylar Hadrutda, digər yerlərdə basdırdıqları daş "abidələri" eyni üsulla apara bilərlər. Yəni, əgər UNESCO Qarabağda haylara məxsus "mədəni irsin"– daş-betonun aqibətindən bu qədər narahatdırsa, onları da demontaj edib, daşısınlar Hayastana. Biz buna qətiyyən etiraz etmərik. Onlara rəsmi müraciətsiz–filansız bu yolda yaşıl işıq yandırmağa hazırıq.*

**İ.HƏSƏNQALA**
**XQ**

Turan mədəniyyəti

# Türk xalqlarının musiqisi

***Əsrlər boyu türk xalqlarını ümumi dil, ortaq folklor nümunələri ilə bərabər, mahnı və melodiyalar da qırılmaz mənəvi tellərlə bağlamışdır. Turan ellərinin zəngin musiqi ənənələrinin dərindən öyrənilərək təbliğ olunması milli musiqişünaslığımız qarşısında duran mühüm vəzifələrdəndir.***

***Azərbaycan Milli Konservatoriyasının prorektoru, professor Lalə Hüseynova son illər bu sahədə sanballı tədqiqatlar aparmışdır. Tanınmış sənətşünas alimin bu mövzuda yazılarını oxuculara təqdim edirik.***

**(Birinci yazı)**



Türk xalqlarının ənənəvi musiqi mədəniyyəti – xalq yaradıcılığı və şifahi ənənəli peşəkar musiqi janrları, habelə milli çalğı alətləri barədə bilgilərin araşdırılması mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, ölkəmizin ali musiqi məktəblərində "Türk xalqlarının musiqisi" fənni geniş tədris olunur.

Yaşadığımız əsri türk əsri adlandırsaq, zənnimizcə, yanılmarıq. Ən son tarixi proseslər türk xalqlarının vüsətli dirçəlişini və birliyini nümayiş etdirir. Türk Dövlətləri Təşkilatının mövcudluğu artıq bir gerçəkliyə çevrilib və bu taleyüklü olaylar tarixin ən dərin qatlarından baş alıb gələn ortaq düşüncənin, zəngin mədəniyyətin varisliyi sayəsində mümkün olmuşdur. Onlara baş vurduqda nəhəng türk dünyasının möhtəşəm ulu keçmişinə, müdrik həyat fəlsəfəsinə, yaşamaq qüdrətinə heyran qalmaya bilmirsən...

Tarixən türklər geniş coğrafi məkanda məskunlaşıblar. Şərqdə Tyanşan dağlarından tutmuş qərbdə Qara dənizin çöllərinə qədər Avrasiyanın böyük əraziləri çoxsaylı türk tayfalarının məskəni olmuşdur.

Şifahi xalq ədəbiyyatı – qədim əfsanələr, əsatirlər, dastanlar bütün türk xalqlarında oxşardır. Mərasimlər, atalar sözlərinin, demək olar ki, eyniliyi, "Dədə Qorqud", "Manas", "Koroğlu" və s. qəhrəmanlıq dastanlarının, müxtəlif nağılların, əfsanələrin, el nəğmələrinin, musiqi alətlərinin müştərəkliyi onların konkret olaraq hansı xalqın məxsusluğunu ayırd etməyi belə çətinləşdirir.

Türklər ta qədimdən musiqiyə müstəsna önəm vermişlər. Çin, Hun türkləri, uyğur türkləri, səlcuqlar və osmanlıların, türk xalqlarının saray və düşərgələrində musiqi qrupları hər gün 9 kök deyilən əsərlər çalırdılar. Ozansız, qopuzsuz Səlcuq ordusu olmayıb. Bu ənənə bütün türk qurumlarında özünü qabarıq göstərib.

Türkdilli xalqların etnik musiqisinin toplanması və tədqiqi işində, ilk növbədə, rusiyalı alimlərin böyük rolu olmuşdur. Təbii ki, rusların türk xalqlarının musiqisinə xüsusi marağı siyasi-ictimai amillərlə şərtlənmişdi. Bu proses dağılmış Rusiya imperiyasının ərazisində XX əsrin əvvəllərində SSRİ adlı dövlətin yaranması ilə daha məqsədyönlü və geniş xarakter almışdı.

Musiqi türkologiyasının bir elm istiqaməti kimi formalaşması XX əsrdə başlanmışdır. Onun əsasını qoyan alimlər sırasında Azərbaycan musiqi mədəniyyətinin dahi siması Üzeyir Hacıbəylinin rolu xüsusi vurğulanmalıdır.

Bu baxımdan bəstəkarın uzun müddət naməlum qalmış bir araşdırması – 1919-cu ildə Azərbaycan Cümhuriyyətinin bir illiyi münasibətilə "İstiqlal" qəzetində dərc olunmuş "Azərbaycan türklərinin musiqisi haqqında" məqaləsi böyük önəm daşıyır. Doqquz bölmədən ibarət olan məqalənin ikinci bölməsi, əslində, türkdilli xalqların musiqi irsinin müqayisəli kontekstdə səciyyəsidir.

Məqalədəki iki fikir indi də aktuallığını itirməmişdir: türk xalqlarının dil baxımından ümumiliyi daha çoxdur, onların musiqi sistemlərində isə tarixən daxil olduqları mədəni əlaqələr çevrəsinin təsiri daha güclü olmuş və nəzərəçarpacaq müxtəliflik yaratmışdır.

Ü.Hacıbəylinin cənub türklərinin musiqi sistemlərinə yunan-ərəb, şimal türklərinin musiqisinə çin musiqisinin lad və üslub cəhətlərinin təsirini qeyd etməsi türk xalqlarının musiqi sənətinin müqayisəli kontekstdə araşdırılması baxımından indi də aktual səslənir.

Sovet dövründə türkdilli respublikaların hər birində milli musiqinin tədqiqi ilə məşğul olan sanballı alimlər yetişmişdi. Özbəkistan, Qazaxıstan, Azərbaycan, Türkiyə, Rusiya Federasiyasına daxil olan Tatarıstan, Başqırdıstan, Tiva, Saxa və digər respublikalarda milli musiqinin tarixinə və nəzəri problemlərinə həsr olunmuş çox sayda tədqiqatlar vardır. Lakin bu tədqiqatlarda ümumtürk mənşəyinin araşdırılması məsələsi ön plana çıxmamışdı. Bu məsələlər ötən əsrin 70-ci illərindən etibarən müəyyən dərəcədə musiqi şərqşünaslığının tərkibində yer almağa başlamışdır.

Bu baxımdan görkəmli özbək alimi, professor Fayzullo Karomatlının (1925-2014) rolu xüsusi vurğulanmalıdır. Həmin dövrdə o, 1972-ci ildə işlədiyi Daşkənd Konservatoriyasında "Şərq musiqisi" kafedrasını yaratmağa müvəffəq olmuşdu. Bunun nəticəsidir ki, 1978, 1983 və 1987-ci illərdə Özbəkistanın Səmərqənd şəhərində Yaxın və Orta Şərq xalqlarının ənənəvi musiqisinə həsr olunmuş beynəlxalq musiqişünaslıq simpoziumları təşkil edilmişdi. 1990-cı ildə "Barbəd və Mərkəzi Asiya xalqlarının bədii ənənələri" adlı beynəlxalq simpozium böyük əks-səda doğurmuşdu. Bu forumlarda F.Karomatlının oxuduğu məruzələr Şərq musiqisinin öyrənmək istiqamətində konseptual məsələlərin ortaya qoyulması ilə səciyyələnir.

Mərkəzi Asiyada ilk dəfə musiqi türkologiyasının mövcudluğu və problemləri barədə açıq danışmağa başlayan alim isə Qazaxıstan musiqişünaslıq elminin tanınmış nümayəndəsi Bulat Karakulov (1942-2014) olmuşdur. Məhz o, 1979-cu ildə öz fikirlərini "Musiqi türkologiyasının problemləri" məqaləsində ortaya qoymuşdur. Müstəqillik illərində B.Karakulov ilk dəfə 1994-cü ildə Almatıda keçirilmiş "Türk xalqlarının musiqisi" Beynəlxalq simpoziumunun təşəbbüskarlarından və əsas təşkilatçılarından biri olmuşdur.

Azərbaycanda bu problemlərin araşdırılması ilə artıq uzun illərdir ki, sənətşünaslıq doktoru, AMEA-nın müxbir üzvü Rəna Məmmədova məşğul olur. Onun fikrincə, musiqi türkologiyası tipoloji-müqayisəli təhlil yolu ilə türk xalqlarının musiqisininin genefondunun axtarışı istiqamətində qüdrətli bir vasitədir. Müəllifin 2002-ci ildə dərc olunmuş "Musiqi türkologiyası" kitabında yazdığı kimi, "Azərbaycan musiqişünaslığının ən aktual və eyni zamanda, ən mürəkkəb problemlərindən biri milli musiqinin ümumtürk köklərinin araşdırılmasıdır".

Keçmiş sovet respublikaları ilə yanaşı, musiqi türkologiyası Türkiyə və Macarıstanda da əhəmiyyətli elmi nailiyyətlərlə gündəmdədir. Türkiyə Cümhuriyyətinin musiqişünasları digər türk xalqlarının tarixi, etnoqrafiyası və musiqi ənənələrinə böyük maraq göstərirlər. Bu baxımdan, türk tədqiqatçısı, professor Fəza Tansuğ öz işlərində türk musiqi tarixini izləyərək, ayrı-ayrılıqda hər bir türkdilli xalqın ənənəvi musiqisinin xasiyyətnaməsini vermişdir. O da türksoylu xalqların musiqisini üslub əlamətlərinə görə klassifikasiya edərək, bu zaman Üzeyir Hacıbəyli kimi coğrafi prinsipə əsaslanmış, lakin onu daha da şaxələndirmişdir.

Macarıstanda musiqi türkologiyasının uğurları onun iki başlıca mənbəyinin–türkologiya və etnomusiqişünaslığın yüksək inkişaf səviyyəsi ilə müəyyən olunub. Təsadüfi deyil ki, dahi bəstəkar və folklorşünas alim Bela Bartok Türkiyədə təşkil olunan musiqi folkloru ensiklopediyalarına rəhbərlik etmək məqsədilə 1930-cu illərdə Türkiyəyə dəvət edilmişdi.

Digər tərəfdən, macar folklor musiqisinin türk musiqisi ilə yaxınlığı bu ölkədə musiqi türkologiyasının inkişafını sürətləndirib. Bela Bartok və Zoltan Kodainin ardınca digər alimlər, o cümlədən Azərbaycana da gəlmiş Yanoş Sipoş geniş coğrafi ərazilərdə (Anadolu, Azərbaycan, Şimali Qafqaz, Qazaxıstan, Qırğızıstan) məhsuldar toplama işləri aparmış və dəyərli elmi əsərlər yazmışlar.

***Lalə HÜSEYNOVA,***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor***

Tibbi yenilik

**Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təcili istifadə üçün təsdiqlənən vasitələr reyestrinə daxil etdiyi həmin vaksin Almaniyanın "BioNTech" biotexnologiya şirkətinin məhsuludur. Korona peyvəndlərinin köməyilə pandemiyanın geridə qaldığı bir zamanda Almanyadan daha bir sevindirici yenilik barədə xəbər yayılıb. Korona vaksinini hazırlayan şirkətin qurucusu Uğur Şahin qurumun xərçəng xəstəliyinin uğurlu müalicəsi istiqamətində apardıqları araşdırmalarından söz açıb.**

# Türk immunoloq xərçəngə qarşı vaksin hazırlayıb



Əslən Hataydan olan türk-alman immunoloq-onkoloqu Uğur Şahin Maynz mərkəzi biotexnoloji "BioNTech" şirkətinin qurucu ortağıdır. O, eyni zamanda, Maynz Tibb Mərkəzinin müəllimi və Transnasyonal Onkoloji və İmmunoloji Mərkəzin direktorudur.

Yenilikçi elm və iş adamı hazırda insan bədənində antigenin azalmasını dayandırmaq üçün "mRNA" adı verilən genetik materialdan istifadə etməklə xərçəng əleyhinə müalicə üsulları axtarışındadır.



Almaniyanın "Bild am Zonntag" qəzetinə müsahibə verən Uğur Şahin məqsədlərinin hər xərçəng xəstəsinə şəfa vermək olduğunu vurğulayıb: "İlk "mRNA" tərkibli xərçəng peyvəndlərinin 2030-cu ildən öncə təsdiqini gözləyirik. 2025–2029-cu illərdə digər müalcəvi yollar arayıb təcrübədən keçirəcəyik. Bunun üçün hər xəstənin onkoloji problemlərini təhlil edirik və immun sisteminin daha çox şiş hüceyrəsini tanıyan və yox edənini seçirik".

İmmunoloq bir başqa ümidverici antikor-dərman müalicəsindən söz açaraq bildirib: "Bu, yeni kimya terapiyası sayılır. Həmin antikorlar qanda hədəfə yetişir və müalicə prosesində şişləri sürətlə kiçildir. Bir neçə ilə onkoloji xəstələrin müalicəsində klassik kimya terapiyasının əvəzinə, hədəfə yönəlmiş antikorlardan daha çox istifadə ediləcəyinə əminəm".

U.Şahin bildirib ki, onkoloji xəstədən alınan qan və şişdən biopsiya yolu ilə götürülən nümunələrdən 4 həftə sonra peyvənd aparılır. Alim hər il 10 minlərlə xəstəyə vaksin vurmağın mümkünlüyünü qeyd edib. Sentyabr ayında şirkət həmin yolla etdiyi müalicənin nəticələrini açıqlayıb. Məlum olub ki, bütün xəstələrdə ağırlaşma dayanıb və onların üçdə ikisində şiş kiçilib.

Müsahibəsində daha sonra immunoloq müalicənin digər üstünlüklərindən bəhs edərək deyib: "Bu üsul immun sisteminin köməyi ilə şişi tamamilə yox etməyə qadirdir. Şiş kiçik olduqda immunoterapiyaya başlayıb xərçəng hüceyrələrini yox etmək olar. Gələcəyin strategiyası müalicədə bu fərqli yanaşmanın kombinə edilmiş variantından istifadədir".

Sonda immunoloq bildirib ki, dərmanlar xəstələrə ehtiyac duyduqları anda, tez çatdırılmalıdır. Müxtəlif yerlərdə gözləyənlər çoxdur. Klinik testlərin cavabı bəlli olduqdan dərhal sonra müalicə başlamalıdır.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Qırğızıstanda soydaşlarımızın milli-mədəni inkişafı



**Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Bişkek şəhərinə səfəri çərçivəsində Qırğızıstan Xalq Assambleyasının sədri Almambet Matubraimovla görüşüb.**

A.Matubraimov hazırda Qırğızıstan ərazisində 100-dən artıq milli azlığın nümayəndələrinin yaşadığını diqqətə çatdırıb. Qeyd edib ki, bütün milli azlıqların hüquq və azadlıqlarının təmin olunması istiqamətində çalışan assambleyada 30 təşkilat rəsmi olaraq təmsil olunur. O, azərbaycanlıların müştərəkkil qüvvəyə çevrildiyini vurğulayıb.

Qırğızıstanda Heydər Əliyev adına 20 nömrəli Məktəb-Gimnaziya təhsil-tərbiyə kompleksini, Nizami Gəncəvi adına 103 nömrəli Qırğızıstan–Azərbaycan orta məktəbini və "İrs" İctimai Birliyinin nəzdindəki "Bazar günü məktəbi"ni ziyarət etdiyini bildirən F.Muradov həmin məktəblərdə Azərbaycan dilinin tədris olunmasından məmnunluğunu ifadə edib. Dövlət komitəsinin sədri qırğız cəmiyyətinə sıx inteqrasiya edən azərbaycanlıların dövlət qayğısı ilə əhatə olunduğunu yüksək qiymətləndirib.

Sonda Azərbaycanın Diaspora İş üzrə Dövlət Komitəsi ilə Qırğızıstan Xalq Assambleyası arasında Anlaşma Memorandumu imzalanıb.

***XQ***

# Gənc oftalmoloqların konfransı və forumu

**Milli Oftalmologiya Mərkəzində gənc oftalmoloqların akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr olunmuş XV Konfransı və I Forumu keçirilib. Azərbaycan Oftalmoloqlar Cəmiyyəti (AOC) Gənc Oftalmoloqlar Komitəsinin təşkil etdiyi tədbir 2 gün davam edib.**

Konfransın açılışında çıxış edən komitənin koordinatoru Emin Əlihüseynli bildirib ki, ölkəmizdə Gənc Oftalmoloqlar Konfransı 2006-cı ildən hər il təşkil edilir. İllər öncə həmin elmi məclislərdə məruzələrlə çıxış edən gənclər bu gün püxtələşmiş mütəxəssislər kimi fəaliyyət göstərir, beynəlxalq tədbirlərdə Azərbaycan oftalmologiyasını layiqincə təmsil edirlər.

Gənc Oftalmoloqlar Komitəsinin sədri, tibb üzrə fəlsəfə doktoru Mirana Mirişova qeyd edib ki, "Gənc oftalmoloqların dostu" fəxri adı ildə bir dəfə ölkəmizdə gənc oftalmoloqların inkişafına xüsusi diqqət və dəstək göstərən şəxsə təqdim edilir. Bu dəfə həmin fəxri ada AOC-nin sədri, professor Elmar Qasımov layiq görülüb. Tibb üzrə fəlsəfə doktoru Yazgül Abdıyeva bu qərara münasibət bildirərək deyib ki, AOC-ın sədri, akademik Z.Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktoru, professor Elmar Qasımov gənc oftalmoloqların peşəkar inkişafına daim dəstək verir, onların dünya standartlarına cavab verə bilən mütəxəssislər kimi formalaşması üçün şəraitin yaradılmasını daim diqqət mərkəzində saxlayır. Gənc Oftalmoloqların I Forumu da AOC-nin sədrinin dəstəyi ilə təşkil edilib.

Sonra fəxri mükafat professor Elmar Qasımova təqdim edilib.

Gənc mütəxəssislər buynuz qişa, katarakta və refraksion cərrahiyyə, okuloplastika, okulyar travmatologiya, okulyar onkologiya, neyrooftalmologiya, tibbi və cərrahi retina, pediatrik oftalmologiya və çəpgözlük, optika və refraksiya, okulyar infeksiyalar, həmçinin uveitlər mövzusunda özündə elmi yenilikləri ehtiva edən mövzularda məruzələr ediblər. Tədbirdə bu sahəni yeni öyrənən həkim-rezidentlər – Nuranə Ələkbərova, Cəmilə Qasımova, Gülxanım Şahmuradova, Samir Manafov, Səbinə Quliyeva, Pakizə Mehralıyeva, Ayan Qəlbinur, Şəhla Musalı, Xatirə Veysəllinin çıxışları da dinlənilib.



Türkiyə, Rusiya, İtaliya, San Marino, Hindistan və Honq-Konq mütəxəssisləri məclisə onlayn qoşulublar.

Konfransın ardınca keçirilən Azərbaycan Gənc Oftalmoloqlarının I Forumunda bildirilib ki, ilk dəfə belə formatda təşkil edilən mərasimin məqsədi gənc mütəxəssislərin qarşılaşdığı problemləri birlikdə dinləmək, praktik oftalmologiyada kövrək addımlarını atan gənc oftalmoloqlarla təcrübəli alim və həkimlərin fikir mübadiləsinə şərait yaradılmasıdır.

"Gənc oftalmoloqların professional inkişafında perspektivlər, beynəlxalq resurslar, problemlər və onların həll yollarının axtarışı" mövzusunda 3 saat davam edən forumda gənc oftalmoloqların diqqətini cəlb edən müxtəlif mövzuların müzakirəsi doktor Emin Əlihüseynlinin moderatorluğu ilə həyata keçirilib. Bundan başqa, həkimlər İnarə Hacı, Pərvin Ağayeva, Lalə Məmmədova, Xuraman Ramazanova və Emin Ərəbov müxtəlif mövzularda məruzələr ediblər.

***Z.HÜSEYNOVA***
***XQ***

28 NOYABR HƏSƏN BƏY ZƏRDABİNİN XATİRƏ GÜNÜDÜR

# Milli mətbuatın, teatrın əsasını qoyan mütəfəkkir

**"Sizdən xahiş edirəm, mənim üçün təntənəli dəfn mərasimi düzəltməyin. Məni çox sadə dəfn edin. Dəfn üçün xərclənməsi lazım gələn vəsaiti müsəlmanlar (azərbaycanlılar – XQ) arasında savad yayan cəmiyyətə verin. Bu, mənim başı bəlalar çəkmiş xalqım üçün daha faydalı olardı".**



Bu vəsiyyət özündən çox, xalqının aqibətini düşünən böyük mütəfəkkir Həsən bəy Zərdabiyə məxsusdur. Babası Rəhim bəy isə ona bağışladığı qılıncın üstündə bu sözləri nəqş etdirmişdi: “Tanrıdan sənə ağlının və dilinin qılıncdan iti olmasını diləyirəm”. 1837-ci il iyunun 28-də dünyaya gələndə atası qulağına “Adın Həsəndir” – əkinçi Həsən – demişdi. Torpaq sahələri olan ata oğlunun o sahələrə sahib çıxacağını düşünmüş, bəlkə də onun bir ömür boyu xeyirxahlıq əkəcəyini ağlına da gətirməmişdi...

Şənbə günləri Tiflisdə yaşayan dayısı Fərəc bəy onu ziyalı məclisinə aparırdı. Mirzə Fətəli Axundovun evində toplaşırdılar. Həsən bəy bu məclislərdə Şamaxı məktəbini himayə edən İsmayıl bəy Qutqaşınlı, Tiflis Gimnaziyasında şərq dillərindən dərs deyən Mirzə Hüseyn Qayıbovu və bir çox azərbaycanlı aydınları tanıyırdı. Tiflis Gimnaziyasını medalla bitirdiyindən onu Moskva Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinin təbiət bölümünə dövlət təqaüdü ilə oxumağa göndərdilər. O vaxt Tiflisdən bu ali məktəbə qəbul olunan gənclər arasında Həsən bəy yeganə müsəlman idi. Onu universitetdə təkcə yaxşı oxuduğu üçün tanımırdılar, həm də şərq ailələrinin adət-ənənələrindən mühazirə deyirdi. Hərtərəfli qabiliyyətinə görə fakültə dekanı professor Aleksandr Davıdov onu “filosof natiq” adlandırırdı.

Universiteti bitirəndə Həsən Məlikova universitetdə qalmaq təklif olunsa da, imtina edərək, Azərbaycana qayıtdı. 1865-ci ildə Tiflisdə “Mərz palatası”nda işə başladı. Onun bu sahədə fəaliyyəti sayəsində Borçalı mahalında yaşayan həmyerlilərinin hüquqları bərpa olundu, əllərindən alınan torpaqları özlərinə qaytarıldı.

Sonra Bakıya gələrək məktəbdə işə düzəldi. Həsən bəy o zaman Qafqazda fəaliyyət göstərən 10 gimnaziyanın müəllimləri arasında ali təhsilli yeganə azərbaycanlı idi.

Zərdabi bir gün "Qafqaz" qəzetində verilən elandan öyrənir ki, Tiflisdə Müqəddəs Nina qız məktəbini bitirənlərin arasında bir türk qızı var. Tiflisə yollanıb, qızı tapır, tanış olur, ona böyük arzularından bəhs edir. Məlum olur ki, Hənifə də onunla həmfikirdir. Beləcə, onların ulduzu barışır və ailə qururlar. Maarifpərvər ailə öz evində məktəb açır.

Ardınca Zərdabi milli mətbuatın özülünü qoymağa qərar verir. 1875-ci ilin 22 iyulunda Bakıda qubernator mətbəəsində Azərbaycan dilində "Əkinçi" qəzetinin nəşrinə nail olur. Xalqın öz dilində çıxan bu qəzetdə milli fikirlərin səslənməsi imperiya qulluqçularını narahat edirdi. Təqiblər, təsirlər son nəticədə 1877-ci il sentyabrın 29-da "Əkinçi"nin nəşrinin dayandırılmasına səbəb oldu.

Həsən bəy Zərdabi həm də Azərbaycan peşəkar teatrının yaradıcılarındandır. Onun rəhbərliyi və gimnaziya şagirdləri Nəcəf bəy Vəzirovla Əsgər ağa Adıgözəlovun fəal iştirakı ilə 1873-cü ildə M. F. Axundovun "Hacı Qara" və "Lənkəran xanının vəziri" komediyaları tamaşaya qoyulub.

1907-ci ilin noyabrın 28-də səhər saatlarında Həsən bəy dünyadan köçdü. Zərdabinin dəfni qədər möhtəşəm mərasim o günə qədər Bakıda olmamışdı. Tabutu üstünə qızıl çərçivəli portreti qoyulmuşdu. “Əkinçi”nin qızıl çərçivəyə salınmış birinci nömrəsi dəfn karvanının önündə aparılırdı.

Bir neçə il əvvəl Nazirlər Kabinetinin qərarı ilə Həsən bəy Zərdabi Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflər siyahısına daxil edilib. Görkəmli publisist, pedaqoq, maarifçi demokrat və ən əsası, Azərbaycan milli mətbuatının və teatrının banisinin xatirəsi daim əziz tutulur.

***Ramilə QURBANLI***
***XQ***

YENİ NƏŞRLƏR

# Heydər Əliyev və milli mədəniyyət tariximiz

**Teatrşünas-tənqidçi Anar Ərtoğrul Burcəliyevin “Milli mədəniyyət tariximiz Heydər Əliyev ideyalarında” kitabı işıq üzü görmüşdür.**




Ulu öndərin əziz xatirəsinə həsr olunmuş yeni nəşrdə onun Azərbaycan mədəniyyətinin inkişafına göstərdiyi diqqət və qayğıdan ətraflı bəhs edilir. “STAR” çap evində buraxılmış kitabın redaktoru Sailə Məhərrəmqızı, bədii tərtibatçısı Zibər İsayevadır.

Yeni nəşrin “XX əsrin mədəniyyət tarixində yeni dövr”, “Heydər Əliyev və müstəqil Azərbaycanın mədəniyyət siyasəti”, “Heydər Əliyev – Azərbaycan mədəniyyətinin ən böyük himayədarı və qayğıkeşi”, “Heydər Əliyev və Azərbaycan teatrı”, “Heydər Əliyevin Nizami Gəncəvi təəssübkeşliyi”, “Milli kinomuzun inkişafında Heydər Əliyevin xidmətləri”, “Azərbaycan kinosu müstəqillik dövründə”, “Heydər Əliyev və Azərbaycan ədəbiyyatı”, “Milli musiqi mədəniyyətimiz və azərbaycançılıq” adlı bölmələrində Ulu öndərin mədəniyyət tariximizin inkişafı və onun ideyalarının əsas məqamları geniş formada təhlil edilib.

Müəllif, həmçinin Ümummilli liderin mədəniyyətin inkişafı ilə bağlı imzaladığı fərman və sərəncamları, “Muzeylər haqqında Azərbaycan Respublikası Qanunu”nu Heydər Əliyev siyasi-mədəni kursunun predmeti olaraq götürüb və müxtəlif rakurslardan geniş təhlilini verib.

Kitabda Ulu öndərin ideyalıarının həyata keçirilməsində, Azərbaycan mədəniyyəti və incəsənətinin dünyaya inteqrasiyasında Heydər Əliyev Fondunun müstəsna rolundan da geniş söhbət açılır.

Yeni nəşr Gəncə şəhəri Nizami və Kəpəz bələdiyyələrinin və Dağlıq Şirvan Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə nəşr edilib.

***XQ***

# Sosial mediada yalan bəlası

**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə Bakı Dövlət Universitetinin dosentləri Aynur Nəsirova və Xatirə Hüseynovanın “Mediada saxta xəbərlər: yayılma səbəbləri və onunla mübarizə üsulları” adlı kitabı çap olunub.**




Qloballaşan dünyanın nailiyyətlərindən olan internet cəmiyyətin həyatına əvəzsiz uğurlar gətirsə də, öz yalanları ilə ciddi problemlər də yaradır. YouTube, Facebook, İnstagram, Twitter, Tik-tok, Whatsapp, Telegram kimi resurslar həm də dezinforimasiyaların tirajlanmasında ciddi rol oynayır. Bəla burasındadır ki, ənənəvi mediadan fərqli olaraq, sosial media yaydığı informasiyaya görə cəmiyyət qarşısında heç bir məsuliyyət daşımır.

Təqdim olunan kitabda sosial mediada ziyanlı proseslərin yaranma səbəbləri araşdırılır, fəallaşan informasiya savaşının ümumi mənzərəsi göstərilir, çoxsaylı faktlara istinad edilir. Müəlliflər dünya informasiya proseslərini həm nəzəri, həm də praktik çəhətdən araşdırmaqla saxta məlumatların qarşısının alınması yollarını da göstəriblər.

“Qanun” Nəşrlər Evində çap olunan 120 səhifəlik kitaba filologiya elmləri doktoru, professor Qulu Məhərrəmli ön söz yazıb. Filologiya elmləri doktoru Vüqar Ziférəoğlu nəşrin elmi redaktoru, fəlsəfə doktoru Nüşabə Hüseynli isə redaktorudur.

***XQ***

# “Kəlağayı əlvan qıyqacı”

**Adına şeirlər, nəğmələr yazılan, Azərbaycan xanımının nəcibliyinə naxış kimi yaraşan kəlağayı heç vaxt itirməyəcəyimiz bir dəyərdir. Bu örtük gözəllik, ismət ləyaqət, ehtiram, sədaqət rəmzi olmaqla yanaşı, qədim tariximizi, mədəniyyətimizi, adət-ənələrimizi özündə qoruyub yaşadır. 2014-cü ildə Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə UNESCO-nun qeyri maddi-mədəni irs üzrə reprezentativ siyahısına daxil edilmiş kəlağayımız dünya səviyyəsində təqdim olunmuş və tanınmışdır.**





**26 noyabr Azərbaycan Kəlağayısı Günü münasibətilə Mədəniyyət Nazirliyinin dəstəyi, “Mirvarid Dilbazi Poeziya Məclisi” İctimai Birliyinin təşkilatçılığı ilə Beynəlxalq Muğam Mərkəzində “Anam kəlağayılı bir muğamıydı” adlı sərgi və konsert keçirilib. “Mirvarid Dilbazi Poeziya Məclisi” İB-nin sədri, şair-publisist Güllü Eldar Tomarlı “Kəlağayı əlvan qıyqacı” layihəsi haqqında danışıb:**

– Bu il Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin qrant müsabiqəsində “Kəlağayı əlvan qıyqacı” layihəmiz qalib oldu. Layihə çərçivəsində eyniadlı ilk şeirlər kitabı işıq üzü gördü. Həmçinin Qazax, Şəki, İsmayıllı və Bakıda kəlağayıya həsr olunmuş ədəbi-bədii gecələr təşkil olundu. İlk dəfə olaraq noyabrın 1-dən 26-dək Azərbaycanın dilbər guşələri olan Tovuz, Qazax, Gəncə, Naftalan, İsmayıllı, Şəki və digər bölgələrdə kəlağayı bayramları təntənəli şəkildə qeyd olundu. Bu gün artıq 12-ci konsert proqramımız Beynəlxalq Muğam Mərkəzində təşkil olunur.

Konsertdə çıxış edən Xətai Rayon İcra Hakimiyyətinin şöbə müdiri Pənah İmanov, Gürcüstanın “Şərəf” ordenli şairi, “Sazın Sözün Butası” təşkilatının sədri Səadət Buta, yazıçı, ədəbiyyatşünas Turan İbrahimov, “Dədə Ələsgər Ocağı” İB-nin sədri Xətai Ələsgərli, “Mirvarid Dilbazi Poeziya Məclisi” İB-nin üzvləri və gənc şairlər çıxış edərək, kəlağayı haqqında maraqlı fikirlər səsləndirdilər. Xalq artisti Gülyaz Məmmədova, Əməkdar artist Nuriyyə Hüseynova, “Səma” rəqs qrupu, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət universitetinin “Xəzər” xor kollektivi, aşıq Rəfiqə Göyçəli və digər sənət adamları bir-birindən maraqlı çıxışlar etdilər.

Tədbir çərçivəsində Kəlağayı Ev Muzeyinin 200 qədim kəlağayıları, əlilliyi olan şəxslərin əl işləri, Tarix üzrə fəlsəfə doktoru Gülzarə Abdulovanın milli geyimləri, rəssam Gülnarə Məmmədovanın və xalçaçı-rəssam Natiq Nəcəfzadənin rəsm əsərləri, rəssam Sehran Allahverdinin “Kəlağayı” kompozisiyası, Güllü Eldar Tomarlının toxuduğu əl işləri tədbir iştirakçılarına nümayiş etdirildi.

***Fidan SALMANOVA***
***XQ***

# “Vətən uğrunda ölərəm”




**Oturub düşünsən bir az dərindən**
**Bu torpaqda ulu hər yan, hər yerdi.**
**Bu qədər dəyərsiz idisə Vətən,**
**Mübariz nə üçün canını verdi?!**

Bu misraları yazanda əsgər Əlikram Xanışovun heç 20 yaşı yox idi. Qonşu rayondan olan əfsanəvi Milli Qəhrəman Mübariz İbrahimov haqqında düşüncələrini qələmə almağa çalışmışdı. Elə bu duyğularla da onun yolunu davam etdirmək üçün müddətli hərbi xidmətdən cəmi 20 gün sonra müqavilə əsasında işləyən kiçik komandir heyətinə qəbul olunmuşdu.

Bir neçə ay keçməmiş Vətən müharibəsi başlananda həyatını hərb işinə həsr edən Əlikram sevinmişdi ki, nəhayət, işğalçılardan qisas almaq üçün fürsət yaranıb. Buna görə də ön cəbhədə mərdliklə döyüşür, azacıq sakitlik yaranan kimi isə qeyd dəftərçəsinə Vətənlə bağlı poetik duyğularını yazırdı:

**İnsan deyərəm mən sənə,**
**haqqına can ver,**
**Gəl, saxlama öz haqqını**
**pünhan ürəyində.**

Bəli, Vətən uğrunda şərəflə vuruşaraq ölmək onun amalı idi. Odur ki, döyüşlər başlanandan bir həftə sonra şəhadətə ucalması ilə sanki arzusuna qovuşdu Əlikram. “Əgər ölsəm, eləyin cismimə bayrağı kəfən”, – deyən şəhid, arzuladığı kimi, üçrəngli Azərbaycan bayrağına bükülərək doğma Göytəpə şəhərinə gətirildi...

Əlikram Xanışov ölümündən sonra Prezident sərəncamları ilə “Cəsur döyüşçü”, “Suqovuşanın azad olunmasına görə” və “Vətən uğrunda” medalları ilə təltif edilib. Cəlilabad Rayon Veteranlar Təşkilatının təşəbbüsü ilə çap olunan şeirlər kitabına isə onun müqəddəs məsləkinə uyğun ad qoyulub: “Vətən uğrunda ölərəm”.

Cəlilabad şəhərindəki 3 nömrəli tam orta məktəbin geniş akt zalında şəhid şairin kitabının təqdimat mərasiminə toplaşanlar – hərbçi dostları, qazilər, əmək və müharibə veteranları, ictimaiyyət nümayəndələri, müəllim və şagirdlər öncə onun ölməz xatirəsinə baş əyiblər. Rayon Veteranlar Təşkilatının sədri – kitabın redaktoru və ön sözünün müəllifi, şair Ədalət Salman Vətən müharibəsi şəhidi Əlikramın həyat və döyüş yolu haqqında danışıb, onun fitri istedad sahibi kimi erkən yaşlarından yaradıcılıqla məşğul oldugunu bildirib. Qeyd edib ki, kitabdakı şeirlərin böyük əksəriyyəti vətənpərvərlik ruhunda yazılan nümunələrdir.

Vətən Müharibəsi Qəhrəmanı Rəşad Abdullayevin atası Arif Abdullayev, tanınmış mədəniyyət işçisi Xeyrulla Şahbazov, hərbçi mayor Elşən Abbasov, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin nümayəndəsi Cavidan Rəşidov, şəhidin döyüş yoldaşı Mirnatiq Cabbarlı, AYB üzvləri Əfrahim Abbas, İman Abdulla, Sakit İsayev, xeyriyyəçi sahibkar Rafiq Abışov və başqaları çıxış edərək torpaqlarımızın azadlığı uğrunda canını fəda etmiş şəhidlərimizin xatirəsinin həmişə əziz tutulduğunu, şəhid ailələrinə və qazilərə dövlətimizin daim diqqət və qayğı göstərdiyi xüsusi vurğulayıblar. Şəhid Əlikram Xanışovun məktəblilərin ifasında səslənən şeirləri tədbir iştirakçılarına duyğulu anlar yaşadıb.

Şəhidin anası Xoşqədəm Xanışova kitabın nəşrini və təqdimatını təşkil etdiyinə görə rayon Veteranlar Təşkilatına və tədbir iştirakçılarına minnətdarlığını bildirib. Sonda şəhid Əlikram Xanışovun "Vətən uğrunda ölərəm" adlı kitabı tədbir iştirakçılarına hədiyyə olunub.

***Ə.ƏLİYEV***
***XQ***

TAMAŞA TƏQDİMATI

# Aktrisanın canlı həyatı səhnədə

**Füzuli Dövlət Dram Teatrında Sevinc Elsevərin “Həyat elə bir oyun ki...” mono-pyesi əsasında Nicat Mirzənin hazırladığı eyniadlı tamaşanın premyerası keçirilib.**



Tamaşada əvvəl qonaqlar – Teatr Xadimləri İttifaqının gənclər sektorunun rəhbəri Dağlar Yusif Əfəndi, teatrşünaslar Vidadi Qafarov, Aliyə Dadaşova, Lənkəran və Qazax Dövlət Dram teatrlarının nümayəndələri Füzuli teatrının heyəti və yaradıcılıq imkanları ilə tanış olublar.

Sonra 35 ildən bəri teatrda çalışan ali dərəcəli aktrisa, Prezident mükafatçısı İntizar Quliyevanın 60 illik yubileyinə həsr olunan benefis-tamaşa oynanılıb. Səhnədə cərəyan edən hadisələr, həqiqətən də, həyatın canlı bir oyun olduğunu göstərir. Rejissorun yozumu ilə bu oyun fərqli çalarlarda təzahür edir. Baş qəhrəman olan bəxtsiz qadın tamaşaçıları yaşadığı çətinliklər aləminə aparır. Qadın aktrisa bu dəfə öz həyatını oynayır. Elə buna görə də səhnələr son dərəcə canlı təsir bağışlayır. Özü demişkən, əyilməz, mübariz qadınların əksəriyyətinin taleyi belədir – ömür tərəzisinin bir gözündə sevinc, bir gözündə qəm...

Səhnə əsərinin quruluşçu rejissoru Nicat Mirzə, quruluşçu rəssamı Ellinaz Balaşova, musiqi tərtibatçısı Ziyad Süleymanov, rejissor assistenti Gülgəz Soltanovadır. Yaradıcı heyətin çıxışı tamaşaçıları təsirləndirib, alqışlarla qarşılanıb.

Tamaşadan sonra Xalq artisti Qabil Quliyev, Əməkdar artist Sucəddin Mirzəyev, əsərin müəllifi Sevinc Elsevər, teatr tənqidçiləri çıxış edərək yeni səhnə əsərinin məziyyətlərindən danışıblar. Yubilyara diplom və gül dəstələri təqdim olunub.

Qeyd edək ki, “Həyat elə bir oyun ki...” tamaşası 2024-cü ilin ilk rübündə Lənkəran teatrının səhnəsinə dəvət alıb.

***XQ***

Milli brendlərimiz

# Azərbaycan şərabları xarici bazara qayıdır

**Azərbaycanın üzüm sortları – "Ağ şanı", "Qara şanı", "Mədrəsə", "Meysəri", "Xındoqnı" və digərləri ölkəmizi nəinki keçmiş postsovet məkanında, bütün dünyada şərabçılıq və üzümçülük ölkəsi kimi məşhurlaşdırmışdı. Ancaq, təəssüflər olsun ki, müstəqilliyimizin ilk illərində bu sahə tənəzzülə uğradı. Onun yenidən dirçəldilməsi və inkişafı isə asan olmadı.**




Bu məqsədlə mühüm qərarlar, dövlət proqramları qəbul edildi. Aqrar sahənin digər istiqamətləri kimi, şərabçılığa da dövlət dəstəyi göstərildi, subsidiyalar, güzəştli kreditlər verildi. Azərbaycan şərabının tanıdılması, təbliği üçün üzüm və şərab festivalları, şərab turları təşkil edildi. Bu cür tədbirlərin keçirilməsi isə şərabçılıq və üzümçülük sahəsinin inkişafını sürətləndirdi.

Bu günlərdə Şamaxı rayonunun Meysəri kəndində İkinci Üzüm və Şərab Festivalının keçirilməsi də yerli üzüm və şərab istehsalının təşviqi, şərab məhsullarının ixrac potensialının artırılması, Azərbaycanda üzümçülük və şərab istehsalı tarixinin və bu sahədə görülən işlərin geniş ictimaiyyətə çatdırmasına xidmət edib. Festivalda ölkəmizin müxtəlif bölgələrindən olan üzüm emalı və şərab istehsalı zavodları tərəfindən müxtəlif çeşidli şərablar nümayiş etdirilib, şərabçılıqla bağlı müxtəlif tədbirlər –şərab dequstasiyaları, yarmarkalar, yerli və beynəlxalq ekspertlərin iştirakı ilə somelye kursları təşkil olunub, Azərbaycanda şərabçılıq və şərab istehsalı tarixi haqqında məlumat xarakterli təqdimatlar nümayiş etdirilib.

Festivalda uzun illərdən sonra ilk dəfə olaraq Qarabağda–Tuğda yetişdirilən Azərbaycanın ən qədim yerli texniki üzüm sortu hesab olunan "Xındoqnı"dan alınan yüksək keyfiyyətli qırmızı süfrə şərablarının təqdimatı da reallaşıb. Bu barədə Dövlət Turizm Agentliyinin mətbuat katibi Gülnar Mustafayeva bildirdi ki, sovet dövründə "Xındoqnı" məşhur üzüm sortu olub və istehsalın 4,1 faizini təşkil edib. Bu isə 12 min hektar üzüm bağı deməkdir:

– Dövlət Turizm Agentliyi tərəfindən Azərbaycanın beynəlxalq səviyyədə tanınan yerli üzüm sortlarının və şərab növlərinin mövcudluğu nəzərə alınaraq şərabçılıq turizminin beynəlxalq səviyyədə təbliğatı aparılır. Ölkəmizdə qərb, şimal və şimal-qərb turizm marşrutları üzrə, o cümlədən Xocavənd rayonunun Tuğ qəsəbəsində mövcud qədim şərabçılıq ənənələrinin yaşadılması və turizm məqsədli istifadəsi əsas inkişaf istiqamətləri sırasındadır. Azərbaycan 20 ölkənin şərabçılıq marşrutunu özündə birləşdirən, Avropa Şurası və Avropa Mədəni Marşrutlar İnstitutu tərəfindən şərab irsi və şərabçılıq turizmini, eləcə də dayanıqlı turizm növlərini təşviq etmək məqsədi ilə yaradılmış "İter Vitis" maddi və qeyri-maddi şərabçılıq mədəni marşrutunun üzvüdür. Festival Azərbaycan şərabının təbliğində önəmli yer tutur.



"Xındoqnı" üzüm sortu Azərbaycanın ən qədim, qiymətli yerli texniki üzüm sortudur. Vətəni Qarabağdır. Qarabağın dağlıq hissəsindəki üzümlüklərin 85–90 faizini "Xindoqnı" sortunun becərildiyi sahələr təşkil edib. Ondan çəhrayı süfrə şərabı – "Gişi", yaxud "Xindoqnı", qırmızı süfrə şərabı – "Qarakənd", qırmızı şərab – "Qızılqaya", portveyn şərablardan – "Çəhrayı portveyn", "Qırmızı portveyn", "Çartar", "Xindoqnı" və "Tavkveri" üzüm sortlarının qarışığından "Qobustan" adi qırmızı süfrə şərabı, "Xindoqnı", "Mədrəsə", "Tavkveri" üzüm sortlarının qarışığından isə "Ağsu", "Şahdağ" kəmşirin şərabları, "Xindoqnı" və "Mədrəsə" sortlarının qarışığından – "Azərbaycan portveyni (qırmızı)" və s. adda yüksək keyfiyyətli müxtəlif növ şərablar istehsal edilib. Vaxtilə bu şərablar nəinki respublikada, hətta xarici ölkələrdə də məhşur idi.

Bu qədər böyük potensiala malik üzüm sortu isə, az qala məhv olacaqdı. Ötən əsrin 80-ci illərində erməni separatçıları tərəfindən torpaqlarımıza qarşı başlanmış işğal siyasəti, nəticədə, ərazilərimizin zəbt olunmasına və bu sortun da, az qala, itirilməsinə səbəb olacaqdı. Torpaqlarımız azad edildikdən sonra "Xındoqnı" üzüm sortu Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun əməkdaşları tərəfindən bərpa edildi. İnstitut əməkdaşları Beyləqan rayonu Daşburun qəsəbəsindəki köhnə üzüm bağlarından (keçmiş Mil Üzümçülük Sovxozu) və Füzuli rayonunun Alıxanlı, Kürdmahmudulu, Əhmədbəyli kəndlərindəki həyətyanı təsərrüfatlardan və köhnə üzüm bağlarından 1800-ə qədər çubuq əkin materialı tədarük edib topladılar. Əkin materialı "Xindoqnu" sortundan ibarət üzüm bağının salınmasında istifadə edildi.

Hazırda o respublikamızda 9,2 hektar sahədə əkilib becərilir ki, onun da 7 hektarı Tuğ kəndindədir (Tuğ kəndində 58,2 hektar üzüm bağları mövcuddur). Yenidən bu sortdan istifadə etməklə şərabçılıq üzrə milli brendlərin istehsalı məqsədilə xammal bazası yaradılıb, şərab istehsalı bərpa olunub. Meysəri kəndində keçirilmiş İkinci Üzüm və Şərab Festivalında təqdimatı keçirilən "Xındoqnı" üzüm sortundan alınan yüksəkkeyfiyyətli qırmızı süfrə şərabları da Tuğun üzüm bağlarının məhsulundan istehsal olunub. Şərab, hələlik, satışa çıxarılmayıb, lakin ixracı da nəzərdə tutulub. "Xındoqnı" üzüm sortundan bu vaxta qədər 2 min litr şərab istehsal olunub. Şərab zavodunun özü də Xocavəndin Tuğ kəndində yerləşir.

İnanırıq ki, üzüm və şərab festivallarının Tuğun şərabçılıq turizminin inkişafında böyük rolu olacaq. Bundan başqa, Tuğa şərab turları da təşkil olunmalıdır. Bu turlara qoşulanlar məhsulu bağdan yığmaqdan tutmuş şərabın dadına baxmağadək bir çox şans əldə edəcəklər ki, bu da təbliğat baxımından önəmlidir.

"Xındoqnı" şərabının xarici bazara çıxarılması da nəzərdə tutulur. Onun gələcəkdə bazarda möhkəmlənməsi üçün indidən tanıdılmalı, daha geniş təqdimatı həyata keçirilməlidir. Bu səbəbdən düzgün təbliğat və təqdimat bacarığı çox vacibdir. Reklam işi də düzgün təşkil edilməlidir. Ən əsası, xarici bazarlara digər ölkələrin məhsulları ilə rəqabət apara biləcək "Xındoqnı" şərabı çıxarılmalıdır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# "Haber Global" Avropada birinci oldu

**"Haber Global" yutub kanalı Avropanın köklü xəbər kanallarını geridə qoyaraq böyük uğura imza atıb.**




Yutubun rəsmi ölçü tərəfdaşları "Social Blade" və "VidIQ"ya görə, "Haber Global" ən çox baxılan yutub kanalları siyahısının ilk pilləsində qərarlaşıb. Kanal son bir ildə 1,125 milyard baxışla yutub xəbər kanalları arasında Avropa üzrə birinci olub.

İkinci yerdə 1,116 milyard baxışla Britaniyanın köklü "Sky News" televiziyası qərarlaşıb. Siyahıda bundan sonra BBC (779 milyon), Almaniyanın "DW News" kanalı (518 milyon) gəlir. İlk beşliyi 477 milyon baxışla "France 24" tamamlayır.

Məlumata görə, "Haber Global" yutub kanalını Türkiyədən əlavə, ən çox izləyən ölkələr Azərbaycan, Almaniya, Rusiya, Fransa və Niderlanddır.

**XQ**

# Ləğv prosesində olan "Muğanbank" ASC-də qorunan əmanətlər üzrə Əmanətlərin Sığortalanması Fondu tərəfindən kompensasiyaların ödənilməsinə başlanıldı




Əmanətlərin Sığortalanmsı Fondu tərəfindən, ləğv prosesində olan "Muğanbank" ASC-də qorunan əmanətlər üzrə kompensasiyaların ödənilməsinə bugündən etibarən başlanılmışdır. Kompensasiya ödənişləri agent banklar olaraq seçilmiş "Azərbaycan Beynəlxalq Bankı" ASC və "Kapital Bank" ASC-nin bütün ölkə üzrə filial şəbəkələri vasitəsilə uğurla həyata keçirilməkdədir.

Qeyd edək ki, "Əmanətlərin sığoratalanması haqqında" Azərbaycan Respublikası Qanunun 28.5-ci maddəsinə əsasən əmanətçilərin ərizələrinin qəbul edildiyi gündən ən geci 30 təqvim günü ərzində Əmanətlərin Sığortalanması Fondu tərəfindən kompensasiya ödənişi həyata keçirilir.

Xatırladaq ki, son illər ərzində ölkədə ləğv prosesinə başlanılmış 5 bank – "Ata Bank" ASC , "Amrahbank" ASC, "NBC Bank" ASC , "AG Bank" ASC və "Günay Bank" ASC üzrə Əmanətlərin Sığortalanması Fondu tərəfindən 700 milyon manatdan artıq kompensasiya ödənişi uğurla həyata keçirilmişdir.

Kompensasiyaların ödənilməsi prosesi haqqında ətraflı məlumatı Əmanətlərin Sığortalanması Fondunun saytından əldə edə bilərsiniz.

www.adif.gov.az

Beynəlxalq həyat

# HƏMAS–İsrail qarşıdurması: Girovlar dəyişdirilir

**Dünən HƏMAS rəhbərliyi İsraillə atəşkəs razılaşması fonunda girovların üçüncü qrupunu təhvil verib. Bu barədə "Amerikanın səsi" radiosu məlumat yayıb.**

İsrail tərəfi daha əvvəl bildirmişdi ki, HƏMAS-ın gün ərzində azad edəcəyi girovların siyahısını əldə edib. Qeyd edək ki, girovların üçüncü raundunun azad edilməsi dörd günlük atəşkəsin üçüncü gününə təsadüf edir.

Girovlar və itkin düşənlər üzrə koordinatorun ofisindən verilən açıqlamada deyilir ki, təhlükəsizlik əməkdaşları siyahıları yoxlayıblar və bu barədə girovların ailələrinə məlumat verilib.

Bu arada İordan çayının qərb sahilində ağır zorakılıq hadisəsi baş verib. Fələstinin Səhiyyə Nazirliyinin rəsmisi bazar günü bildirib ki, İsrail qüvvələri dünən gecə İordan çayının qərb sahilində azı altı fələstinlini güllələyib. Rəsmi Təl-Əviv bu faktı nə təsdiq, nə də təkzib edib.



Dünən HƏMAS axşam saatlarında 13 israilli və 4 taylandlı olmaqla 17 girovu azad edib. Sərbəst buraxılan 13 israillinin əksəriyyəti "Kibbutz Beeri"dən olan yeddi uşaq və altı qadındır. Bundan qısa müddət sonra, İsrail 39 fələstinli məhbusu sərbəst buraxıb.

İsrail Baş nazirinin ofisi bu gün üçün azad ediləcək girovların siyahısını aldığını, bunun dörd razılaşdırılmış mübadilədən üçüncüsü olduğunu bildirib.

Ağ evin milli təhlükəsizlik müşaviri Cek Sallivan "NBC" telekanalının aparıcısına deyib ki, ABŞ-ın ən azı bir amerikalı girovun, 4 yaşlı qızın tezliklə azad ediləcəyinə ümidi var.

Onun sözlərinə görə, həmin amerikalı qız HƏMAS-ın İsrail tərəfindən müxtəlif cinayətlərə görə həbs edilən 150 fələstinlini azad etməyə razılaşdığı 50 girov arasında ola biləcək üç amerikalıdan biridir.

***XQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*Dielektrik ayaqaltıların satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il dekabrın 4-ü saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili- 1132

Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*Polad burazların satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il dekabrın 4-ü saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012)404-37-00, daxili- 1132.

Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 259 (30375) 28 noyabr 2023-cü il, çərşənbə axşamı


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## İdman xəbərləri

### Qadın karateçimiz dünya çempionudur

**Azərbaycan karateçisi Elşanə Rüstəmzadə (50 kq) kyokuşin-kan növü üzrə keçirilən dünya çempionatında uğurla çıxış edib.**



İdmançımız Qazaxıstanda böyüklər arasında keçirilmiş kyokuşin-kan üzrə dünya çempionatında bürünc medal qazanıb. Bu nəticə ilə o, böyüklər arasında dünya çempionatında medal qazanan ilk azərbaycanlı qadın karateçi kimi adını tarixə yazdırıb. Komandamızın digər üzvü, Cəmil Kazımlı isə 65 kiloqramdan yuxarı çəki dərəcəsində 3-cü yeri tutub.

Yeniyetmələrin yarışında isə 14-15 yaş qrupunda Nəzrin Hacıyeva (45 kq) dünya birinciliyinin qalibi olub.

### Qədir Hüseynov şahmat yarışının qalibidir

**Kişilər arasında şahmatın rapid və blits növləri üzrə ən güclü idmançı müəyyənləşib.**



Bakı Şahmat Klubunda təşkil olunan Azərbaycan çempionatında iştirakçılar əvvəlcə rapid, daha sonra blitsdə mübarizə aparıblar. İki yarışın yekununa görə, 11 xal toplayan Qədir Hüseynov Azərbaycan çempionatının qalibi adına layiq görülüb. Abdulla Qədimbəyli 9,5 xalla ikinci, Kənan Qarayev 9 xalla əlavə göstəricilərə görə 3-cü yeri tutub.

Qeyd edək ki, yarış dekabrda Özbəkistanın Səmərqənd şəhərində keçiriləcək rapid və blits üzrə dünya çempionatlarına seçmə xarakter daşıyır.

### UEFA Azərbaycanın 3 klubuna vəsait ayırıb

**UEFA 2022/2023 mövsümündə avrokuboklarda çıxış edən Azərbaycan klublarından 3-nə ödəniş edib.**




Belə ki, "Neftçi" 106 min 943 avro, "Qəbələ" və "Zirə" isə hərəyə 64 min 166 avro vəsait alıblar. UEFA Konfrans Liqasında çıxışa görə klublara ayrılan əlavə ödənişlər qitə futbol qurumu tərəfindən AFFA-nın vasitəçiliyi ilə onların hesabına köçürülüb.

*Leyla SABİRQIZI*
*XQ*

## Maqazin

### Keçmiş "xoşbəxt"lərin mülkü satılır

**Məşhur Hollivud aktyorları Bred Pitt və Ancelina Colinin Nyu Orleandakı malikanəsi hərraca çıxarılacaq. Bu barədə "The New York Post" məlumat yayıb.**



Dekabrın 11-nə planlaşdırılan hərracda başlanğıc qiymət 5,35 milyon dollar olacaq. Dünyaca populyar cütlük malikanəni 2007-ci ildə 3,5 milyon dollara alıb. Aktyorlar 2016-cı ildə mülkü təmir etmək məqsədilə tərk ediblər və iki il sonra boşanıblar.

Ev 1830-cu illərin Paris malikanələrini xatırladır.

*XQ*

## Ekologiya



### Zooparkda canlı dərslər

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələri Bakı Zooloji Parkında dərs-ekskursiyaları davam etdirir.**

Bu barədə BŞTİ-dən bildirilib ki, dərs-ekskursiyalar Elm və Təhsil Nazirliyinin "Bakı Zooloji Parkında dərs-ekskursiyaların təşkilinə dair təlimata" və "Zooparkda keçirilməsi tövsiyə edilən mövzuların siyahısı"na əsasən təşkil olunur.

Ekskursiyalardan sonra şagirdlərə zoopark və oradakı heyvanlar barədə fikir və təəssüratlarını əks etdirən esse yazmaları və ya təqdimat hazırlamaları tapşırılır.

*XQ*

## Hava

### Hava soyuyur, yağıntı artır



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, noyabrın 28-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.**

Gecə və səhər yarımadanın bəzi yerlərində qısa müddətə intensivləşəcəyi ehtimalı var. Axşama doğru tədricən kəsiləcək. Güclü şimal-qərb küləyi əsəcək, gündüz mülayimləşəcək. Gecə 6-8°, gündüz 9-12° isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunundan 768 mm civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Arabir güclənən qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3-7°, gündüz 9-14° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

*Q. QASIMOV*
*XQ*

## Sosial şəbəkələrdən seçmələr

### "Sonbaharda xəzəl olur təbiət"

**Payız çox kövrək fəsildir. Qarşıdan şaxtalı-sazaqlı günlərin gələcəyi ilə bağlı düşüncələr ilin bu günlərində qəlbimizi incəldir. Etiraf edək ki, təbiətin payız libası çox rəngarəngdir.**





İndi ətrafımızdakı parklar, bağlar, meşələr öz ömürlərinin payız fəslini yaşayır. Xüsusilə şairlər payızın kövrək ruhunu, ovqatını tez duyurlar, bu dəyişikliklərə həssas yanaşırlar, çox vaxt da düşüncələrini şeir parçalarına çevirirlər.

Bu günlərdə "Facebook"da dostluğumda olan tanınmış şair Həzi Həsənlinin qələmə aldığı payız lövhəsi də diqqətimi cəlb etdi:

*İlk baharda gözəl olur təbiət,*
*Vururluq çiçəyə də, gülə də.*
*Sonbaharda xəzəl olur təbiət,*
*Payız kimi kövrəlirik belədə..*

Görünür, Həzi Həsənli kimi duyğusal şairlər təbiətə bizdən bir köynək yaxındırlar. Rübabın doğma təbiətimiz qədər hər zaman əlvan qalsın, qəlbi kövrək şairim!

*Təqdim etdi:*
*M.HACIXANLI*
*XQ*

## Konsert

### Filarmoniyada "Qarabağ inciləri"

**M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçirilən "Qarabağ inciləri" adlı konsertdə bəstəkar İlyas Mirzəyevin əsərləri səslənib.**



Filarmoniyadan bildirilib ki, dirijor Mustafa Mehmandarovun rəhbərliyi, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (bədii rəhbər və baş dirijor Azərbaycan Respublikasının Əməkdar artisti Fuad İbrahimov) müşayiəti ilə solistlər İlyas Mirzəyev (piano), Olgu Kızılay (violin, Türkiyə) və Nuran Bəkir (balaban) çıxış ediblər.

*N.AYTƏN*
*XQ*

## Sağlamlıq

### Öskürək – özün əncam çək...

**Öskürək ilin bütün fəsillərində, əsasən də soyuq aylarda kiçikdən-böyüyə hər kəsin əziyyət çəkdiyi sağlamlıq problemlərindəndir. Xalq təbabətində ev şəraitində öskürəyi kəsən reseptlər mövcuddur. Onlardan 3-nün hazırlanma qaydası belədir:**

**Öskürəyə qarşı balzam:** 500 qram xırdalanmış qoz ləpəsi, 300 qram bal, 100 qram aloe şirəsi və 4 limonun suyu qarışdırılır. Uşaqlar üçün 1 çay qaşığı, böyüklər üçün isə 1 xörək qaşığı gündə 3 dəfə yeməkdən yarım saat əvvəl qəbul etmək məsləhətdir. Məlhəm öskürək, bronxit və digər soyuqdəymə problemlərində mükəmməl təsir edir.

**Viburnum ilə çay:** Şəkər ilə viburnum (kalina) bir bankaya tökülüb üzərinə qaynar su əlavə edilir. Bu canlandırıcı içki soyuqdəymə, öskürək və səs tutulmasına kömək edir.

**Quru öskürək zamanı:** Zövqə görə



50 qram kərə yağı, yumurta sarısı və şəkər qarışdırılır. Gün ərzində 2 dəfə yeməkdən əvvəl 2 çay qaşığı qəbul edilir. Bu, quru öskürəyi yumşaldır.

*Z.HÜSEYNLİ*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4806
SİFARİŞ 3117
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00